Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

23 İYUL 2019-cu il

№ 128 (4026)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# İRƏVANDA «METSAMOR» AES BEYNƏLXALQ NÜVƏ QAÇAQMALÇILIĞININ ƏSAS MƏNBƏYİNƏ ÇEVRİLİR

■ səh. 8 ■

İlham Əliyevin prezidentlik dövründə medianın əsas inkişaf göstəriciləri...

■ səh. 3 ■

"Qarabağ klanı"nın hakimiyyətdən gedişi də Qarabağ həllinin düyününü aça bilmir - hərb yolu qaçılmaz olur...

■ səh. 9 ■

Mübariz Qurbanlı dünya nazirlərinin hansı beynəlxalq konfransında yekun sənəd imzalamaqdan imtina edib...

■ səh. 4 ■

Paşinyanın əsgərlərə yalvarış tonlu müraciəti - fərariliyin yüksək etirafı...

■ səh. 5 ■

NATO-da dağılma prosesləri - Türkiyə sanksiyalara məruz qoyulsa...

■ səh. 6 ■

Ermənilər Yaponiyada "Şur" muğamı və balabanın da "axırına çıxdılar"

■ səh. 11 ■

Azərbaycan öz qızıl ehtiyatlarını artırır

■ səh. 10 ■

Bakı küçələrində motosikletli təcili tibbi yardım həkimləri...

■ səh. 14 ■



■ səh. 2 ■

## Prezident mətbuatımızı Azərbaycanın dünyada eşidilən səsi adlandırdı və nəşr olunan qəzetlərə 1 milyon manat ayırdı



Erməni diasporu Makronu Azərbaycanla münasibətlərdə pis vəziyyətdə qoyan bəyanat verdi...

■ səh. 5 ■

Paşinyanın hakimiyyəti Avropa Məhkəməsinin və Venesiya Komissiyasının bir qərarından tam asılı duruma gəldi...

■ səh. 6 ■



Qlobal «valyuta müharibəsi» manatı bahalaşdırır - narahat təhlillər başladı...

■ səh. 7 ■

■ səh. 3 ■

Azərbaycan mediasının ən böyük dövrü...



■ səh. 4 ■

AXCP Elçibəyi "casus" ittihamlarından niyə inadla müdafiə etmədi - Leyla Yunusdan ehtiyat, ya...



■ səh. 12 ■

6 ayda Azərbaycanda xarici kapitalla minə yaxın şirkət - "xarici kapital qaçır" deyənlər hardadır?



■ səh. 7 ■

Buğda 38-39 qəpiyə qalxdısa - çörək bahalaşacaqmı?...



■ səh. 13 ■

Bir və ikinci qruplarda bircə nəfər də 700 ballı abituriyent olmadı



## Prezident İlham Əliyev Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin nümayəndə heyətini qəbul edib

**Prezident İlham Əliyev iyulun 22-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin rəhbəri Sun Taonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Baki-xeber.com bu barədə president.az saytına istinadən xəbər verir.

## Novruz Məmmədov öz sosial şəbəkə hesabında Milli Mətbuatdan yazdı

**144 yaşını qeyd edən Milli Mətbuatımız əsasını 1875-ci iyulun 22-də görkəmli ziyalı, publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış və ictimai-maarifçiliyi hədəfləmiş "Əkinçi" qəzetindən götürüb. O vaxtdan keşməkeşli yol keçən Azərbaycan mətbuatı daim cəmiyyətin proseslərə baxışını əks etdirən güzgü rolunu oynayır. Müasir Azərbaycan mətbuatı isə ölkəmizin bütün sahələrdə əldə etdiyi nailiyyətlərə uyğun olaraq, öz inkişaf dövrünü yaşayır.**



"Trend"in məlumatına görə, bu fikirləri Baş nazir Novruz Məmmədov özünün "Twitter" səhifəsində qeyd edib.

Baş nazir vurğulayıb ki, Azərbaycan mətbuatının milli-mənəvi dəyərlərin təşviqi, gənc nəslin vətənpərvər ruhda böyüməsi, eləcə də ölkəmizin xarici siyasət maraqlarına aid olan məsələlər, xüsusilə Ermənistan- Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq auditoriyaya çatdırılması və milli informasiya təhlükəsizliyimizin təmin olunmasında müstəsna xidməti var:"Bütün media nümayəndələrini Milli Mətbuat günü münasibətilə təbrik edir, onlara can sağlığı, məsuliyyətli işlərində daim uğurlar arzulayıram".

## Akademik, MM-in Komitə sədri Əhliman Əmiraslanov "Bakı-Xəbər" kollektivini təbrik etdi

**Milli Məclisin Səhiyyə komitəsinin sədri, millət vəkili, akademik Əhliman Əmiraslanov "Bakı xəbər" qəzetinin rəhbərliyini və kollektivini Milli Mətbuat Günü münasibətilə təbrik edib. Hörmətli akademikin qəzetin təsisçisi və baş redaktoru Aydın Quliyevə ünvanladığı məktubda deyilir:**



**Hörmətli Aydın müəllim!**

Sizi və əməkdaşlarınızı 22 iyul - Milli Mətbuat Günü münasibətilə təbrik edirəm!

Mətbuat cəmiyyətin, tarixi proseslərin, milli düşüncənin, xalqın mənəviyyatının inikasıdır. Bu gün 144 yaşı tamam olan Azərbaycan Milli Mətbuatının zəngin tarixi vardır. 1875-ci ilin 22 iyulunda görkəmli maarifçi, alim və publisist Həsən bəy Zərdabi tərəfindən əsası qoyulan "Əkinçi" qəzeti ilə xalqımızın milli oyanışında, mədəni mühitimizdə yeni üfüqlər açılmışdır.

Milli mətbuatımız müstəqillik illərində böyük inkişaf yolu keçmişdir. Vətəndaş cəmiyyətinin formalaşmasında, milli birlik və tolerantlıq dəyərlərinin möhkəmləndirilməsində Azərbaycan mətbuatı mühüm bir missiya yerinə yetirir. Eyni zamanda dövlətimiz kütləvi informasiya vasitələrinin bu mühüm rolunu həmişə dəstəkləmiş, mətbuatın inkişafına hərtərəfli şərait yaratmışdır.

Hörmətli Aydın müəllim!

Sizə peşəkar və şərəfli fəaliyyətinizdə uğurlar və müvəffəqiyyətlər arzu edirəm. Bir daha Milli Mətbuat Gününüz mübarək olsun!

Hörmətlə,

*Əhliman Əmiraslanov*
*Akademik, Milli Məclisin Səhiyyə komitəsinin sədri*

# Prezident mətbuatımızı Azərbaycanın dünyada eşidilən səsi adlandırdı və nəşr olunan qəzetlərə 1 milyon manat ayırdı

**Bünövrəsi "Əkinçi" ilə qoyulmuş Milli Mətbuatımız bu gün Azərbaycanın dünyada eşidilən səsidir.**



Bu fikir Azərbaycan Prezidenti İlham Əliyevin "Facebook" səhifəsində 22 iyul - Milli Mətbuat Günü münasibəti ilə paylaşımında qeyd edilib.

Prezident İlham Əliyev Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımının ayrılması haqqında Sərəncam da imzalayıb.

Sərəncama görə, Azərbaycanda nəşr olunan qəzetlərə əlavə maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1,0 (bir) milyon manat ayrılır.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etməlidir.

# KİVDF-nin Müşahidə Şurası yenidən toplandı - Milli Mətbuat Günü münasibətilə keçirilmiş müsabiqənin nəticələri təsdiqləndi

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının Azərbaycan Milli Mətbuatının yaranmasının 144-cü ildönümü münasibətilə keçirilmiş fərdi jurnalist yazıları müsabiqəsinin nəticələrinin müzakirəsinə və təsdiqinə həsr olunmuş iclası keçirilib.**



Müşahidə Şurasının sədri Həsən Həsənov gündəlikdə olan məsələ barədə məlumat vermək üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib.

İcraçı direktor müsabiqənin 2019-cu il iyunun 8-dən iyulun 12-dək Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyasında əksini tapmış 19 istiqamət üzrə keçirildiyini, müsabiqəyə 56 KİV-dən 142 yazının təqdim edildiyini bildirib.

Sonra müsabiqənin ekspertlərin rəyləri əsasında hazırlanmış yekun nəticələri iclasın müzakirəsinə təqdim edilib. Müşahidə Şurasının sədri Həsən Həsənov, sədr müavini İlqar Hüseynov, üzvlərdən - Bəhruz Quliyev, Ramiz Əskər, İntiqam Hümbətov, Ayaz Mirzəyev, Əvəz Rüstəmov və Rasim Həsənov Fondun keçirdiyi fərdi jurnalist yazıları müsabiqələrinin jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, yaradıcı əməyini stimullaşdırılması və sosial vəziyyətlərinin yaxşılaşdırılması baxımından əhəmiyyətini qeyd edib.

Müzakirələrin yekununda müsabiqənin şərtlərinə uyğun olaraq 19 istiqamət üzrə qaliblər elan edilib, ümumilikdə 111 nəfər jurnalistin mükafatlandırılması haqqında qərar qəbul olunub.

# Söz azadlığından sui-istifadə etmək istəyən, bir qrup özünə jurnalist deyən şəxsin DİN və MŞ qarşısında təxribat cəhdi baş tutmadı

**İyulun 22-də - ölkəmizdə Milli Mətbuat Gününün qeyd edildiyi bir vaxtda əsas vəzifəsi cəmiyyəti operativ, obyektiv və dolğun informasiya ilə təmin etməli olan bir neçə media təmsilçisi öz peşə borclarını yerinə yetirmək əvəzinə, ictimai diqqəti üzərlərinə çəkmək məqsədilə söz, mətbuat və ifadə azadlığı ilə heç bir çərçivəyə sığmayan hərəkətlərə yol verib.**

DİN diqqətə çatdırır ki, medianın inkişafı üçün dövlət tərəfindən yaradılmış əlverişli şəraitdən belə sui-istifadə halları mövcud qanunvericiliyin tələblərinə əsasən qətiyyən yolverilməzdir. Nazirliyin Mətbuat xidmətinin xəbərinə görə, özlərini müstəqil jurnalist adlandıran həmin şəxslər səhər saatlarında Daxili İşlər Nazirliyinin inzibati binasının qarşısında qanunsuz olaraq toplaşmağa və aidiyyəti dövlət orqanları ilə öncədən razılaşdırmadan aksiya keçirməyə cəhd göstərib. Polis əməkdaşları tərəfindən bu təxribat xarakterli cəhdin qarşısı alınıb və aparılmış profilaktik söhbətlərdən sonra həmin şəxslər ərazidən uzaqlaşıb.

Onlar bununla kifayətlənməyərək, anoloji hərəkətləri Mətbuat Şurasının inzibati binasının qarşısında da təkrarlamağa çalışıb, lakin ərazidə xidmət aparan polis əməkdaşları tərəfindən görülmüş tədbirlərlə ictimai asayişin və hüquq qaydasının kobud şəkildə pozulmasına yol verilməyib. Həmin hadisənin fəal iştirakçılarından olan, xırda xuliqanlıq etmiş bir nəfər saxlanaraq Nərimanov Rayon Polis İdarəsinin 16-cı Polis Bölməsinə aparılıb, orada fərdi söhbətdən və rəsmi xəbərdarlıq edilməsindən sonra sərbəst buraxılıb.

***Baki-xeber.com***

# İlham Əliyevin prezidentlik dövründə medianın əsas inkişaf göstəriciləri...

**Ölkədə ilk mətbu orqanın - əsası Həsən bəy Zərdabi tərəfindən qoyulmuş "Əkinçi" qəzetinin nəşrə başladığı 22 iyul 1991-ci ildən Azərbaycanda Milli Mətbuat Günü kimi qeyd olunur. "Əkinçi"nin 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 sayı işıq üzü görsə də, onun Azərbaycan milli mətbuatının təşəkkül tapmasında, inkişafında əvəzsiz rolu olub.**



## *Azər Həsrət: "O da, bizim kimi, Həsən bəy Zərdabi ideallarına sadiq bir şəxsiyyətdir"*

Əsasən maarifçilik missiyasını üzərinə götürmüş "Əkinçi" az müddətdə həm ziyalı təbəqə, həm də sadə insanlar arasında çox məşhurlaşdı. Təsadüfi deyil ki, dövrünün görkəmli ziyalıları və qələm sahibləri qəzetlə əməkdaşlıq edir, müntəzəm olaraq məqalələrlə çıxış edirdilər. Lakin "Əkinçi"nin ömrü uzun sürmədi. Çar Rusiyası qəzetin insanların maariflənməsində, ictimai-siyasi proseslərə daha yaxından bələd olmasındakı rolundan çəkinməyə başladı və sonda qəzetin nəşrini dayandırdı.

O vaxtdan müxtəlif tənəzzül və intibah dövrləri keçən Azərbaycan mətbuatı daim cəmiyyətin proseslərə baxışını əks etdirən güzgü rolunu oynayıb. 1998-ci ilin avqustunda senzuranın ləğvi isə Azərbaycanda mətbuatın inkişafına ciddi təkan verib.

Hazırda respublikada çoxlu sayda müxtəlif qəzet və jurnal nəşr olunur, internet qəzetçilik inkişaf edir. Azərbaycan Konstitusiyasında söz və mətbuat azadlığının təməl prinsip olaraq əksini tapması ölkədə medianın azad və güclü bir cəmiyyət institutu kimi formalaşmasına təkan verib. Sözsüz ki, bütün bu proseslərin əsas iştirakçıları, əldə olunan nəticələrin əsas səbəbkarları Azərbaycan jurnalistləridir.

Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın təsdiq edilməsi, 2009-cu il aprelin 3-də Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması azad medianı inkişaf etdirmək, mətbuatın maddi-texniki bazasını möhkəmləndirmək, jurnalistlərin sosial vəziyyətini yaxşılaşdırmaq məqsədilə atılan mühüm addımlardandır.

Milli mətbuatımızın yubileylərinin ölkədə geniş qeyd olunması, KİV-ə birdəfəlik yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri, həmçinin, milli mətbuatın inkişafındakı xidmətlərinə görə jurnalistlərin fəxri adlarla təltif edilməsi haqqında sərəncamlar da mətbuata və bu sahədə çalışanlara göstərilən qayğının tərkib hissəsidir. İlham Əliyevin prezidentlik dövründə medianın əsas inkişaf göstəriciləri daha nələr sayıla bilər?

Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi ötən dövrdə Azərbaycan mətbuatının inkişafı ilə bağlı çox fərqli addımlar atılıb: "Əsasən azad mətbuatın geniş əl-qol açması üçün mümkün olan, dünya standartlarına tam cavab verən qanunverici bazanın möhkəmləndirilərək təkmilləşdirilməsini göstərə bilərik. Konstitusiyadan başlayaraq, digər qanunlarımızda elə hallar nəzərdə tutulur ki, istənilən şəxs media fəaliyyəti ilə məşğul ola bilər. Prezident İlham Əliyevin şəxsən özü jurnalistlərin sosial problemlərini üzərinə götürüb. Bilirsiniz ki, cənab Prezident dəfələrlə jurnalistlərin dostu seçilib. Bizim dəfələrlə Prezidentə müəyyən problemlərin həlli ilə bağlı müraciətlərimiz olub. Xüsusilə də mənzil şəraitinin yaxşılaşması üçün edilən müraciətlərə müsbət cavab verildi. Hazırda jurnalistlər üçün iki bina tikilib, üçüncü də istifadə verilmək üzrədir. "Əməkdar jurnalist" adının bərpa edilməsi də İlham Əliyevin adı ilə bağlıdır. Milli maraqların qorunması istiqamətində fərqlənən jurnalistlərə bu adın verilməsi çox təqdirəlayiqdir. Ölkə başçısının özünün mediaya münasibəti xarakterik sayıla bilər. O, jurnalistlərlə çox səmimidir. Bütün görüşlərdə biz bunu sezirik. Özü bilərəkdən şərait yaradır ki, jurnalistlər sərbəst fikirlərini ifadə edə bilsinlər. Şəxsən iştirak etdiyim görüşdə Prezidentin dediyi fikir mənə qol-qanad verdi. Düşünürəm ki, bu, bütün media mənsublarına da yaradıcılıq, fəaliyyət üçün əlavə stimul vermiş oldu. Deyirdi ki, bütün neqativlikləri yazın, göstərin, çünki məmurlar bəzən mənə yalan məlumat verir, mən gercəkləri bilmək istəyirəm.

Cənab Prezidentin bu sözü istənilən ölkə jurnalisti üçün arzuolunandır. Azərbaycan mediasına dövlətin qayğısı hazırda çox yüksək səviyyədədir. Təəssüf ki, bəzi bədxahlar bunu görmək istəmirlər. Bu heç nəyi dəyişmir. İlham Əliyevin mediaya münasibəti tam olaraq Azərbaycanın milli, dövləti maraqlarına cavab verir. Belə bir gündə mən həmkarlarımızla bərabər ölkə başçısını da təbrik etmək istərdim. O da, bizim kimi, Həsən bəy Zərdabi ideallarına sadiq bir şəxsiyyətdir".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan mediasının ən böyük dövrü...

**22 iyul keşməkeşli, ağrı-acılı, lakin şərəfli yol keçmiş Azərbaycan milli mətbuatının yaranma günüdür. Azərbaycan milli mətbuatının 144 yaşı tamam oldu. Azərbaycan mətbuatının əsas inkişaf dövrü ölkənin müstəqillik dövrünə təsadüf edir. 1990-cı illərin əvvəllərində yeni qəzetlərin nəşri prosesi həyata keçirildi və bununla da jurnalistikada keçid mərhələsi başladı.**



## *Elçin Mirzəbəyli: "Müstəqillik dövründə Azərbaycan mətbuatı formalaşıb, yetkinləşib və inkişaf edib"*

Müstəqillik ideyalarını təbliğ edən, milli oyanış, özünüdərk prosesinin əsas faktoru olan Azərbaycan mediası bu vaxtdan etibarən yeni inkişaf mərhələsinə qədəm qoydu. 1993-cü ildən başlayaraq ölkəmizin ictimai-siyasi həyatında sabitliyin bərqərar olması, vətəndaşların təhlükəsizliyinin və qanunçuluğun təmin edilməsi, sosial-iqtisadi problemlərin həlli üzrə ciddi addımların atılması nəticəsində mətbuatın fəaliyyətində söz, fikir və məlumat azadlığının qorunması sahəsində əsaslı irəliləyişlər əldə edildi. Ümummilli lider Heydər Əliyevin səyləri nəticəsində Azərbaycanda mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələr aradan qaldırıldı, qanunvericilik bazası təkmilləşdirildi. KİV-in maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər həyata keçirildi. Müstəqil kütləvi informasiya vasitələrinin təsis edilməsi və azad fəaliyyəti üçün mükəmməl qanunvericilik bazası yaradıldı.

1998-ci ilin avqustunda senzuranın ləğvi Azərbaycanda mətbuatın inkişafına ciddi təkan verib. 2003-cü ilin 15 martında Azərbaycan jurnalistləri könüllü prinsiplər əsasında özünütənzimləmə mexanizmi olan Azərbaycan Mətbuat Şurasını yaratdılar. Yeni internet-media sistemi formalaşdı, qəzetlərin elektron versiyaları hazırlandı. 2009-cu il aprelin 3-də Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun yaradılması azad medianı inkişaf etdirmək, mətbuatın maddi-texniki bazasını möhkəmləndirmək, jurnalistlərin sosial vəziyyətini yaxşılaşdırmaq məqsədilə atılan mühüm addımlardandır.

Bir sözlə, Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkə mətbuatı böyük inkişaf yolu keçib. Maraqlıdır, bəs ekspertlər bu dövrü necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəylinin sözlərinə görə, Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkə mətbuatı ciddi inkişaf yolu keçib: "Azərbaycan mətbuatının əsas inkişaf mərhələsi 1993-cü ildən başlayıb. Bunu birinci mərhələ kimi hesab etmək olar. Mətbuatın inkişaf prosesi daha çox Ümummilli lider Heydər Əliyev tərəfindən 1998-ci ildə mətbuat üzərindən senzura götürüldükdən sonra başlayıb. O vaxtdan ölkə mətbuatı ilə dövlət strukturları arasında münasibətlərin inkişafında çox önəmli bir mərhələ başlayıb. Dövlət təmənnasız olaraq siyasi baxışlarına, dünyagörüşünə fərq qoymadan medianın bütün sektoruna dəstək verməyə başlayıb. 2008-ci ildən başlayaraq bütün bu proses konseptual forma almağa başlayıb. Bu çərçivədə Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu yaradılıb. Məhz bu Fond vasitəsilə mətbuatın inkişafı ilə bağlı Azərbaycan dövləti üçün prioritet olan istiqamətlər üzrə proseslərin həyata keçirilməsi ilə bağlı müvafiq addımlar atılıb. Biz ötən dövr ərzində bir neçə istiqamətdə önəmli irəliləyişlərin əldə olunduğunun şahidi olmuşuq. İlk növbədə bu, Azərbaycan mediasının maddi-texniki bazasının formalaşması və həmçinin ölkə mətbuatının xarici dairələrdən asılılığının maksimal dərəcədə minimuma endirilməsi ilə bağlıdır. Bu gün bəzi cüzi istisnalar olmaq şərtilə, ayrı-ayrı xarici ölkələr tərəfindən maliyyələşdirilən mətbuat orqanı, KİV Azərbaycanda, demək olar, yoxdur. Bu aspektdən əldə olunan irəliləyiş həm də Azərbaycan informasiya təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir.

## *"Daha çox azərbaycançı və dövlətçi olub"*

Ona görə də müstəqillik dövründə Azərbaycan mətbuatı formalaşıb, yetkinləşib və inkişaf edib. Xarici təsirlərə qarşı mübarizədə informasiya gücü artıb. Daha çox azərbaycançı və dövlətçi olub".

***Vidadi ORDAHALLI***

**Erməni KİV-i ölkəmizlə bağlı növbəti dezinformasiyanı tirajlayıb. Həmin məlumatda bildirilir ki, guya Azərbaycan ABŞ-ın dəstəklədiyi düşüncə, vicdan, din, etiqad və ifadə azadlığını müdafiə edən əsas bəyanatı imzalamaqdan imtina edən yeganə Cənubi Qafqaz ölkəsi olub.**

# Mübariz Qurbanlı dünya nazirlərinin hansı beynəlxalq konfransında yekun sənəd imzalamaqdan imtina edib...




Məlumatda qeyd edilir ki, ABŞ Dövlət Departamentində keçirilən "Tarixdə ən böyük dini azadlıq hadisəsi" adlanan üçgünlük nazirlər toplantısının sonuncu günündə ABŞ vitse-prezidenti Maykl Pens və dövlət katibi Mayk Pompeo, 106 ölkədən yüzlərlə nazir çıxış edib. Qeyd olunur ki, Azərbaycanı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı təmsil edib. Ermənistan nümayəndə heyətinə isə XİN rəhbəri Zöhrab Mnatsakanyan rəhbərlik edib.

ABŞ hökuməti yığıncağa müxtəlif bölgələrdə dini azadlıqla bağlı narahatlığa dair 9 bəyanat təqdim edib. Bunların arasında terrorizmə qarşı mübarizə; Birma-Myanmadakı vəziyyət; Çində dini azlıqların vəziyyəti və s. bəyanatlar olub. İştirakçı ölkələrə əsas məsələlər üzrə ümumi narahatlığı nümayiş etdirmək üçün bəyanatlara qoşulmaq imkanları verilib. Azərbaycan 9 bəyanatdan 4-nü, o cümlədən, terrorçu və ekstremist qruplar tərəfindən dini azadlığın sistematik, davamlı və görünməmiş şəkildə pozulmasını pisləyən bəyanatı dəstəkləyib. Eyni zamanda, Azərbaycan nümayəndə heyəti küfr və mürtədlik haqqında qanunlara dair bəyanatları dəstəkləməyib. Digər Cənubi Qafqaz ölkələri - Gürcüstan və Ermənistan bütün bəyanatları dəstəkləyiblər.

Erməni mediasının yaydığı bu məlumatda olduqca ziddiyyətli məqamlar nəzərə çarpır. Çünki təqdim edilən formatda ölkəmizin niyə məhz komitə sədri səviyyəsində təmsil olunduğu maraqlı görünür. Bundan əlavə, dini tolerantlığın yüksək səviyyədə olduğu Azərbaycan niyə bu istiqamətdə olan bəzi sənədləri imzalamaq istəməsin?

Məlumatın nə dərəcədə həqiqət olub-olmadığını aydınlaşdırmaq üçün Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən məlumat öyrənmək cəhdlərimiz alınmadı. Ancaq apardığımız araşdırma nəticəsində məlum oldu ki, ABŞ tərəfinin dəvəti ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının rəhbərlik etdiyi nümayəndə heyəti iyulun 16-18-də Vaşinqton şəhərində keçirilmiş Din Azadlığının İrəlilədilməsi üzrə 2-ci Nazirlər Konfransında həqiqətən iştirak edib. Qurumdan verilən məlumatda qeyd edilir ki, konfransa 100-dən artıq dövlətin və 10-dan çox beynəlxalq təşkilatın rəsmiləri, habelə dini liderlər və vətəndaş cəmiyyəti qruplarının nümayəndələri qatılıblar.

ABŞ-ın vitse-prezidenti Mayk Pens, dövlət katibi Mayk Pompeo və Dövlət Departamentinin beynəlxalq din azadlıqları sahəsində xüsusi tapşırıqlar üzrə səfiri Sem Braunbek tədbirdə çıxış ediblər.

Azərbaycan nümayəndə heyətinin rəhbəri Mübariz Qurbanlı çıxışında ölkəmizin dünyəvi dövlət olduğunu, respublikamızdakı mövcud dövlət-din modelini, müxtəlif dini icmaların dostluq və mehribanlıq şəraitində birgə yaşadığını, cəmiyyətimizin tolerantlıq və multikulturalizm ənənələrinin bir nümunə olduğunu vurğulayıb. O, həmçinin, qeyd edib ki, bu ənənələri daha da gücləndirmək üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl siyasət həyata keçirilir, dini icmaların inkişafı üçün onlara maddi yardımlar edilir. Ölkəmizin beynəlxalq aləmdə model olduğunu söyləyən M.Qurbanlı antisemitizmin olmadığı və İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü olan Azərbaycanın dinlər və sivilizasiyalar arasında dialoqu təşviq edən əsas dövlətlərdən biri olduğunu vurğulayıb. M.Qurbanlı, həmçinin, cari ilin noyabrında Azərbaycanın Dünya dini liderlərinin II Bakı sammitini keçirəcəyini də xatırladıb.

Bəzi münaqişələrin sonradan dini dona salınmasının yolverilməz olduğunu söyləyən M.Qurbanlı belə addımların qınanmasının və onların qarşısının alınmasının vacibliyini qeyd edib. O, dinlərin barışa və sülhə töhfə verməli olduğunu, bu xüsusda xristian və müsəlman dini liderləri Azərbaycan torpaqlarının işğalı ilə nəticələnən münaqişənin həllinə və bir milyonadək soydaşımızın öz doğma yurd-yuvasına qayıtmasına yardım etməyə çağırıb.

Göründüyü kimi, sözügedən tədbirdə ölkəmizin hansısa sənədlərə qol çəkməkdən imtina etməsinə dair heç bir məlumatdan söhbət getmir. Çox güman ki, ermənilər belə dezinformasiyaları yaymaqla ölkəmizin tolerant, mültikultural ənənələrinə, bu istiqamətdə əldə etdikləri uğurlara kölgə salmaq istəyirlər. Məlumdur ki, dini dözümlülük və həmin istiqamətdə olan azadlıqlarla bağlı Azərbaycan dünyaya örnək olacaq səviyyədə inkişaf edib. Ölkəmiz bu mövzuda olan təbliğatın aparılmasında bir generator rolunu oynayır. Bizim bu mövzuları əhatə edən irimiqyaslı tədbirlərə evsahibliyi etməyimiz buna əyani sübutdur. Ermənistan belə dəyərlərdən tam kənar qaldığı, monoetnik bir ölkə olduğundan, Azərbaycanın uğurlarını bu cür qarayaxmalarla heçə endirməyə çalışır.

*Məhəmmədəli* *QƏRİBLİ*

---

**Özünü hüquq müdafiəçisi adlandıran Leyla Yunus ABŞ-da yaşayan jurnalist Sevinc Osmanqızının "Osmanqızı" kanalında xalq hərəkatının lideri, AXCP sədri olmuş Azərbaycanın ikinci prezidenti Əbülfəz Elçibəyi "agent" adlandırıb. L.Yunus deyib ki, Əbülfəz Elçibəyin həbsdən çıxmasının səbəbi onun KQB ilə əməkdaşlığa getməsi olub.**

# AXCP Elçibəyi "casus" ittihamlarından niyə inadla müdafiə etmədi - Leyla Yunusdan ehtiyat, ya...

## *Rəfail Becanov: "Bir daha təsdiq olundu ki, Leyla Yunusla Əli Kərimlinin idarə olunmasında eyni xətt mövcuddur"*



Leyla Yunusun bu açıqlaması cəmiyyətdə ciddi etirazla qarşılanıb. Çox maraqlıdır ki, Leyla Yunusun Elçibəy haqda səsləndirdiyi fikirlərə AXCP mirasına tam sahib çıxmış Əli Kərimlinin rəhbəri olduğu partiyadan olduqca zəif münasibət bildirilir. Hətta YAP-çılar belə bu mövzuda Elçibəyi müdafiə edib, Leyla Yunusu sərt tənqid etdiyi halda, Əli Kərimli gözləmə mövqeyinə çəkildi. Jurnalistlərin, siyasətçilərin sosial şəbəkədəki sərt etirazlarından sonra Əli Kərimli çox yüngül tərzdə bu mövzuya münasibət bildirdi, özü də 4 gün sonra. Niyə AXCP adını daşıyan bir partiyanın sədri öz liderini inadla müdafiə etməkdən çəkinir? Leyla Yunusdan olan qorxunun arxasında hansı amil dayanır?

AXCP adına iddialı olan qanadlardan birinin funksioneri Rəfail Becanov qəzetimizə bildirdi ki, Əli Kərimli bu hərəkəti ilə Elçibəyə hansı dərəcədə sadiq olduğunu bir daha sübut etdi: "Çox ciddi təpkilərdən sonra o, kiçik açıqlama verməyə məcbur oldu. Hətta Elçibəyin əleyhdarları belə onu Leyla Yunusa cavab verməkdə qabaqladı. Onun açıqlaması ilə tanış olduqda bir nəticə çıxır: "üzürü qəbahətindən betər". Həmin münasibətdə Leyla Yunusa belə bir xitab var: "indi bunun zamanıydımı?" Sanki demək istəyir ki, Elçibəyə "agent" demək olardı, amma indi yox. Bu yanaşmadan Əli Kərimlinin mövqeyi tam aydın olur. Orada Əli Kərimli deyir ki, heç vaxt Elçibəyin fanatı olmayıb. Bir daha aydın olur ki, Əli Kərimli daim Elçibəydən istifadə edib. Leyla Yunusdan çəkindikləri də dəqiqdir. Bundan artıq şəkildə cavab verə də bilməzdi. Əli Kərimli ilə Leyla Yunusu maraqlandıran xeyli məqam var ki, onlar üst-üstə düşür. Leyla Yunusun xarici təşkilatlarda ciddi maliyyə qaynaqları var. Çox güman ki, həmin qaynaqlardan da Əli Kərimli də bəhrələnir. Leyla Yunusla konfliktə getmək həmin maliyyədən məhrum olmaq anlamına gələ bilər. Əli Kərimli sərt cavab verməməsini guya hakimiyyətlə mübarizə aparan insanların mövqeyini zəiflədə biləcəyi ilə əsaslandırdı. Leyla Yunus heç vaxt hakimiyyətlə mübarizə aparmayıb, onun mübarizəsi Azərbaycan dövlətinə qarşı olub. Bir daha təsdiq olundu ki, Leyla Yunusla Əli Kərimlinin idarə olunmasında eyni xətt mövcuddur.

### *"Cavabın zəif olması və gecikməsi bununla bağlıdır"*

Cavabın zəif olması və gecikməsi bununla bağlıdır".

*Məhəmmədəli* *QƏRİBLİ*

**Son vaxtlar Azərbaycanla Fransa arasında münasibətlərin daha da yaxşılaşması erməniləri ciddi narahat etməyə başlayıb. Fransada fəaliyyət göstərən erməni diasporunun rəhbərlərindən olan Ara Toranyan son zamanlar Fransa ilə Ermənistanın münasibətlərində yaranan sərinlikdən narahatlığını ifadə edib.**




# Erməni diasporu Makronu Azərbaycanla münasibətlərdə pis vəziyyətdə qoyan bəyanat verdi...

## *Yeganə Hacıyeva: "Hansısa diaspor sədrinin böyük bir ölkənin prezidentini şantaja məruz qoyması yolverilməzdir"*

Diaspor rəhbəri Fransanın Azərbaycanla hərbi sahədə etdiyi əməkdaşlıqdan dərin narahatlıq keçirdiyini bəyan edib: "Fransanın Azərbaycana silah satması onun neytrallığını şübhə altına qoyur. Çünki həmin ölkə Minsk Qrupunun həmsədridir". Erməni diasporu bir qədər də irəli gedərək, Makronu şantaj edib. Diaspor sədri deyib ki, guya Makron onlara Azərbaycana silah satmayacağına dair söz verib: "Çünki həmin silah "Artsax"a və ermənilərə qarşı işlənəcək. Biz istərdik ki, Makron verdiyi vədə əməl etsin. Toranyan deyib ki, bu mövzu hələ qapanmayıb: "Biz Makronu ermənipərəst siyasətçi kimi tanıyırıq. Əminik ki, bütün mümkün olanları edəcək ki, həm Fransa, həm də Ermənistan üçün məqbul olsun".

Göründüyü kimi, Fransadakı erməni diasporunun rəhbəri, faktiki olaraq, Makronu açıq şantaja məruz qoyur. Bununla bağlı Fransanın rəsmi dairələri, ölkələrdə olan səfirləri hansı bəyanatı verməlidirlər?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Fransadakı diaspor fəalının verdiyi açıqlama olduqca ziddiyyətlidir: "Sanki Fransanın üzərinə bir haqq qoyulur. Bu da azmış kimi, Fransanın Prezidenti təhdidə məruz qalır. Guya o, Ermənistana söz verib ki, Azərbaycana silah satmayacaq. Tamamilə yalan və absurd yanaşmadır. Makron belə sözü nə vaxt verib ki, biz onu eşidə bilməmişik? Ermənilərin narahatlığının səbəbi məlumdur. Son vaxtlar Fransada onlara zərbə sayıla biləcək qərarlar qəbul edilib. Söhbət Fransa məhkəmələrinin separatçı rejimlə bağlanan "müqavilələri" ləğv etməsindən gedir. Bundan əlavə, Fransanın qeyr-neft sektorunda çalışan ən böyük şirkətləri Azərbaycanla əlaqələr qurmaqda maraqlı olduqlarını göstərdilər. Bütün bunlar onu deməyə əsas verir ki, artıq həmin ölkədəki erməni diasporu lazım olan səviyyədə hökumətin mövqeyinə təsir edə bilmir. Çıxış yolunu şantajda görürlər. Guya Fransanın Azərbaycana silah satmasını həmsədrliklə bağlayıb, bunun mümkünsüzlüyünü qeyd edirlər. Onda sual oluna bilər: bəs Rusiya həmsədr deyil? Niyə Ermənistan onlardan silah alır? Rusiya hər iki tərəfə silah satır. Bir dəfə erməni jurnalist bu mövzuda Putinə sual verdi və yaxşı da cavabını aldı. Silah satışı çox gəlirli biznesdir. Kimin pulu var, onu ala bilir. Satışla məşğul olan ölkə üçün bu daha maraqlıdır. Fransa da onun kimi edəcək.

*"Fransada erməni diasporu nə qədər güclü olsa da, həqiqətin, faktların qarşısında aciz duruma düşüb"*

Yəni bu yöndə ermənilərin etdiyi canfəşanlıq keçərli deyil. Amma düşünürəm ki, ölkəmizdəki Fransa səfirliyi bu məsələyə reaksiya verməlidir. Hansısa diaspor sədrinin böyük bir ölkənin prezidentini şantaja məruz qoyması yolverilməzdir. Fransada erməni diasporu nə qədər güclü olsa da, həqiqətin, faktların qarşısında aciz duruma düşüb. Proses belə də gedəcək".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistanın Baş naziri Nikol Paşinyanın iki gün əvvəl hərbi hissələrdən birinə etdiyi səfər zamanı maraqlı hadisə yaşanıb. Erməni mətbuatının məlumatına görə, səfər əsnasında hərbçilərlə birlikdə nahar edən Baş nazir, erməni əsgərlərinə xidmətlərini davam etdirmək, hərbi hissədən qaçmamaq üçün, sözün həqiqi mənasında, yalvarıb.**



# Paşinyanın əsgərlərə yalvarış tonlu müraciəti - fərariliyin yüksək etirafı...

## *Məhəmməd Əsədullazadə: "Bütün bunlar onu göstərir ki, Ermənistan ordusunda fərarilik ciddi problemə çevrilib"*

Hərbi xidmətdə öyrənilən bilik və bacarıqların mülki həyatda da onlara gərək olacağını bildirən Paşinyan, erməni hərbçilərini "vətənə" həvəslə xidmət etməyə, dövlətə "maksimum fayda" verməyə səsləyib. Erməni gənclərinin hərbi xidmətdən yayınmasının yolverilməz olduğunu bildirən Paşinyan, onları centlmen olmağa səsləyib.

Bundan başqa, Paşinyan qeyd edib ki, o, erməni ordusunu regionun ən səmərəli ordusu etməyə çalışır: "Lakin bunun üçün erməni ordusu öncə regionun ən ağıllı ordusu olmalıdır".

Bütün bunlar Ermənistan ordusunda fərariliyin nə qədər ciddi bir problem olduğunu ortaya qoyur. Nəzərə almaq lazımdır ki, Ermənistanda hərbi xidmətdən yayınan gənclərin sayı 11 mindən çoxdur. Məlum olub ki, hazırda 27-35 yaşarası 3225 vətəndaş orduda xidmətdən yayındıqlarına görə axtarışa verilib. Yerdə qalan hərbi xidmətdən qaçan minlərlə insan isə 27 yaş həddinə çatmayan gənclərdir.

Hətta bununla bağlı ölkədə qanunvericiliyə bir sıra dəyişikliklər edilib. Ermənistan qanunvericiliyinə görə, həqiqi hərbi xidmət keçməyən, lakin yaşı 27-yə çatan vətəndaşlar cinayət məsuliyyətindən qaçmaq üçün 1,8 milon dram (təqribən 3700 ABŞ dolları) məbləğində cərimə ödəməlidirlər. Əks təqdirdə onlar həbs edilirlər.

Ancaq Paşinyanın əsgərlərlə görüşündən belə məlum olur ki, qanunda edilən dəyişikliklər də bir effekt vermir. Ermənistanda gənclər hərbi xitmət keçməyə həvəsli deyillər. Orduda fərarilik gör nə səviyyədədir ki, Paşinyan, bir növ, əsgərlərə yalvarış tonunda müraciət edir.

Maraqlıdır, bəs ekspertlər Ermənistan ordusunda yaranan bu acınacaqlı vəziyyəti necə dəyərləndirirlər?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə aspektdən yanaşdı: "Bütün bunlar onu göstərir ki, Ermənistan ordusunda fərarilik ciddi problemə çevrilib. Get-gedə bu problem daha qabarıq formada özünü göstərir. Digər tərəfdən, Ermənistan ordusunda ciddi ikitirəlik formalaşıb. Bir tərəfdən "Qarabağ klanı"na bağlı olan qrup, digər bir tərəfdən də Paşinyana tabe olanlar. Təbii ki, bu da orduda Paşinyanın nəzarət mexanizmini itirməsinə gətirir. Hazırda Paşinyan çalışır ki, ordunu tam şəkildə nəzarəti altına alsın və orduda "Qarabağ klanı"nın təsir imkanlarını sıradan çıxarsın. Ona görə əsgərlərə yalvararaq öz hakimiyyətini ordu üzərində möhkəmləndirməyə çalışır.

*"Paşinyan çalışsa da, orduya tam nəzarəti təmin edə bilməyəcək"*

Paşinyan çalışsa da, orduya tam nəzarəti təmin edə bilməyəcək. Baş verənlər göstərir ki, Ermənistanda inqilab inkişafa deyil, daha da mərkəzdənqaçma proseslərinə gətirib çıxarıb. Orduda mərkəzi hakimiyyət öz mövqeyini sarsıdıb. Paşinyan çalışsa da, ordunu tam nəzarətə ala bilməyəcək və işğal olunmuş ərazilərdə ordunun bir hissəsi ona tabe olmaqdan yayınacaq. Bununla belə, Ermənistan ordusunda fərarilik problemi dərinləşməkdə davam edəcək".

***Vidadi ORDAHALLI***



## NATO-da dağılma prosesləri - Türkiyə sanksiyalara məruz qoyulsa...

***Ramil Hüseynov:** "Məlum səbəblərə görə Türkiyə NATO-dan çıxarılsa, o zaman alyansın dağılma prosesi sürətlənə bilər"*

### *"Fransa ilə Almaniya alyansın üzvü olsalar da, Avrosentrizm mövqeyindən çıxış edirlər"*

**Türkiyə Rusiyadan S-400 zenit-raket kompleksi almaq istədiyini bildirdikdən sonra Qərb blokunun bu ölkəyə təzyiqləri artıb. Məsələ ondadır ki, rəsmi Vaşinqton Rusiya istehsalı olan S-400 zenit-raket komplekslərinin tədarükü ilə bağlı Türkiyənin F-35 proqramından çıxarılmasına dair qərar qəbul edib. Ağ Ev vurğulayıb ki, Ankara tərəfindən zenit-raket komplekslərinin alınması ən yeni ABŞ qırıcılarının tədarükü ilə uyğunsuzluq təşkil edir.**

Türkiyəyə qarşı digər sanksiyalar Avropa İttifaqından gəlib. Qeyd edək ki, Aralıq dənizinin şərqində təbii qaz yataqları 2010-cu ildə kəşf edilib. "Exxon Mobil"in 2018-ci ildə adanın cənubunda yerləşən 10 saylı parseldə (Kipr türklərinə aid hissədə ayrılaraq sərhədlənmiş ərazi) təbii qaz axtarışına başlaması ilə gərginlik artıb. Bunun ardınca Türkiyə bölgəyə "Fatih" qazma gəmisi və döyüş gəmilərini göndərdi. Bundan sonra Türkiyə Aralıq dənizinin Kiprin türklərə aid hissəsində geoloji kəşfiyyat işləri aparmağa başlayıb. Bir müddət sonra "Yavuz" adlı qazma gəmisi bölgəyə göndərilib. Bundan sonra ABŞ və Avropa İttifaqı Türkiyəyə təzyiqlər göstərməyə başlayıb. Aİ üzv ölkələrin xarici işlər nazirləri Türkiyənin Kiprə məxsus xüsusi iqtisadi zonasında geoloji kəşfiyyat işləri aparması ilə bağlı bu ölkəyə qarşı sanksiyaları qəbul edib. Qərara əsasən, Avropa İttifaqı Şurası ən yüksək səviyyədə Ankara ilə dialoq aparmaqdan imtina edir və Assosiasiya Şurasının iclasını ləğv edib. Bundan əlavə, Şura Avropa İnvestisiya Bankına Türkiyədə kredit fəaliyyətinə yenidən baxmağı və Ankaraya maliyyə yardımını azaltmağı məsləhət görüb.

Bütün bunların fonunda nəzərə almaq lazımdır ki, ABŞ və Türkiyə ilə yanaşı, Aİ-nin əksər üzvləri NATO blokunun üzvüdür. Türkiyənin NATO bloku üçün önəmi isə çox böyükdür. Bu gün Türkiyə Əfqanıstandan Kosovoya, Bosniya-Herseqovinadan Afrikaya qədər NATO-nun bir çox əməliyyatlarında aktiv rol oynayır. Türkiyə İzmirdə NATO-nun quru komandanlığına, Kürəcikdə strateji cəhətdən önəmli olan radar sistemlərinə evsahibliyi edir. Eyni zamanda, müttəfiqlərinə İncirlik və Konya bazalarını NATO əməliyyatları üçün istifadə etməyə imkan verir. Türkiyə bu gün NATO əməliyyatlarında səhnə alan ən aktiv 5-ci, NATO büdcəsinə ən çox dəstək verən 8-ci ölkədir.

Ancaq Türkiyəyə qarşı sanksiyalar məsələsində yaşananlar blokun gələcəyini şübhə altına alır. Baş verən son proseslərdən sora NATO blokunun dağılacağı ilə bağlı ehtimallar artır. Çünki baş verən proseslər blok daxilində sarsıntılara yol açır.

Maraqlıdır, bütün bunların blokun gələcək perspektivinə necə təsiri olacaq?

Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, Türkiyəyə qarşı ABŞ və Aİ-nin sərgilədiyi mövqe NATO-nun gələcəyi üçün yaxşı perspektiv vəd etmir: "Qərb bu gedişlə Türkiyəni sıxışdırmaqda davam etsə, o zaman Ankara NATO blokundan çıxa bilər. Bu baş versə, o zaman NATO həm siyasi, həm də hərbi baxımdan ciddi zərbə ilə üzləşəcək. Çünki Türkiyə NATO-nun cənub cinahında ən vacib və strateji əhəmiyyət kəsb edən ölkədir. Düzdür, Türkiyə NATO-dan çıxmaq fikrində deyil. Ancaq S-400 raket komplekslərinin alınması ilə bağlı yaşananlar və Avroittifaqın Türkiyəyə qarşı sərgilədiyi tutum bununla bağlı ciddi problemlərin olmasından xəbər verir. Məlum səbəblərə görə Türkiyə NATO-dan çıxarılsa, o zaman alyansın dağılma prosesi sürətlənə bilər. Bir məqamı unutmaq olmaz ki, Fransa ilə Almaniya NATO üzvü olsalar da, Avrosentrizm mövqeyindən çıxış edirlər. Bunun mahiyyəti ondan ibarətdir ki, ABŞ-ın Avropada təsir imkanları azaldılsın. Bu kontekstdə hətta ayrıca Avropa ordusunun yaradılması gündəmdədir. ABŞ-ın bir neçə dəfə çağırışlarına rəğmən, aparıcı Avropa ölkələri NATO-nun xərcləri ilə bağlı çox vəsait ayırmır. Əsas yük ABŞ-ın üzərinə düşür. Ona görə də NATO-nun dağılması risqi var".

***Vidadi ORDAHALLI***

**İşğalçı Ermənistanda vəziyyət yenidən qarışır. Bunun əsas səbəblərindən biri sosial-iqtisadi müstəvidə artan problemlər və yaranan vəziyyətdən istifadə etməyə çalışan "Qarabağ klanı"nın baş nazir Nikol Paşinyana qarşı kütləvi aksiyalar təşkil etməyə çalışmasıdır. Paşinyan isə əvvəlki qaydada "Qarabağ klanı"nı hüquqi müstəvidə sıradan çıxarmaqda israrlıdır.**

# Paşinyanın hakimiyyəti Avropa Məhkəməsinin və Venesiya Komissiyasının bir qərarından tam asılı duruma gəldi...

Hazırda proseslərin gedişi göstərir ki, Paşinyan klanın lideri sayılan ölkənin sabiq prezidenti Robert Köçəryanı həbsdə saxlamaqda, sonuncunun tərəfdarları isə onu azadlığa çıxarmaq üçün ən müxtəlif vasitələrə əl atmaqda israrlıdır. Bu durumda Ermənistanın Konstitusiya Məhkəməsi sabiq prezidentin cinayət işi üzrə icraatı dayandırıb və onu məsləhətləşmə aparılması məqsədilə Avropa İnsan Haqları Məhkəməsinə və Venesiya Komissiyasına göndərib. İyulun 18-də qəbul olunan məhkəmə qərarına əsasən, Konstitusiya Məhkəməsi sabiq prezidentin barəsində cinayət işi üzrə yekun qərarı hər iki beynəlxalq hüquq təşkilatının rəyindən sonra verəcək. Bundan əvvəl isə Apelyasiya Məhkəməsi birinci instansiya məhkəməsinin Köçəryanın azadlığa buraxılması qərarını ləğv edib və sabiq dövlət başçısı yenidən həbsxanaya göndərilib. Ermənistanın hüquq-mühafizə orqanları isə birinci instansiya məhkəməsinin hakimini təqib etməyə başlayıblar. Xatırladaq ki, Köçəryana qarşı 2008-ci ildə Ermənistanda Konstitusiya quruluşunun devrilməsi ittihamı irəli sürülüb. "Qarabağ klanı" isə işin Avropa İnsan Haqları Məhkəməsinə və Venesiya Komissiyasına göndərilməsi fonunda Köçəryanı siyasi məhbus qismində qələmə verməyə başlayıb.

"Qarabağ klanı"na daxil olan erməni psixoloq Mhirdat Madatyan və İrəvan Ağsaqqallar Şurasının sabiq üzvü Marina Xaçatryanın son açıqlamaları da bunu təsdiq edir. Onlar bildirib ki, Robert Köçəryanı siyasi məhbus hesab edirlər. Madatyanın sözlərinə görə, Avropa tezliklə bu statusu ona verəcək: "Köçəryanın nüfuzu hazırda kifayət qədər artıb. Paşinyan Köçəryanı necə "bağlamağı" düşünür və onu özünə yeganə alternativ hesab edir. Bu gün Paşinyan öz qonaqlarını Köçəryanın inşa etdirdiyi şimal prospektinə gəzintiyə çıxarır". Xaçatryan isə, öz növbəsində Köçəryandan başqa erməni general Manvel Qriqoryanı da siyasi məhbus hesab etdiyini qeyd edib: "Bir həkim olaraq, Qriqoryana qarşı nümayiş etdirilən davranışa ürək ağrısı ilə baxıram. Qriqoryanın nə üçün mühakimə edildiyi məlum olmadığı bir halda, səhhətində bu cür ciddi problemi olan insanı necə həbsdə saxlamağın mümkün olduğunu anlamıram. Sadəcə, bu şəxsin danışmağını istəmirlər. Ermənistanın ikinci prezidenti güclü şəxsiyyət, təhsilli ailəyə malik olmaqla mübarizə aparır və nüfuzu qalxırsa, Qriqoryan sanki ümidlərini itirib. Qriqoryan doğrudan da cinayət törədibsə, hamı kimi mühakimə olunmasını istəyirəm. Qriqoryanı dinləmək və mədalın ikinci üzünü görmək arzusundayam".



Baş nazir Nikol Paşinyan isə deyilənlərə sərt cavab verib. Onun sözlərinə görə, indiki vəziyyətdə Köçəryan siyasi məhbus adlandırılmamalıdır: "Robert Köçəryanı siyasi məhbus adlandıran bütün şəxslər onu demək istəyir ki, mən bu gün Ermənistanın Silahlı Qüvvələrini İrəvan şəhərinə daxil edə və istənilən müxalifət təzahürlərini tankların tırtılları altında əzə bilərəm". Bu arada isə proseslər göstərir ki, artıq "Qarabağ klanı"nın da yaxından iştirakı ilə Ermənistanı Paşinyanın qorxduğu aksiyalar bürüyür. Ermənistanın İcevan rayonunda baş verənlər də bunun təsdiqidir. Qeyd edək ki, İcevanda taxta-şalban sexlərinin əməkdaşları etiraz aksiyası təşkil edib, Gürcüstana gedən yolu qapadıblar. Etirazçılar hökumətdən meşələrdə ağac kəsilməsinə qoyulan qadağanın ləğvini tələb ediblər. Nəticədə polislə toqquşma yaranıb və 13 nəfər yaralanıb. Nikol Paşinyan bildirib ki, hökumətə qarşı bütün qanunsuz tələbləri diqtə etmək cəhdlərinin qarşısı ən sərt formada alınacaq: "Heç bir qanunsuz kompromis olmayacaq və bunu hamının bilməsi vacibdir. Bu vəzifəni hüquq-mühafizə orqanları qarşısında dəqiq şəkildə qoyuram. Heç kim hökumətlə şantaj dilində danışmaq haqqına sahib deyil". Paşinyan bildirib ki, etirazçıların tələbləri haqsızdır və hökumətin qərarı qüvvəsində qalacaq

Ermənistan polisinin rəhbəri Valeri Osipyan isə İcevanda baş verən aksiyada 500-600 nəfərin iştirak etdiyini deyib. O, etirazçıların polisin tələbinə tabe olmadığını bildirib: "Heç nədən asılı olmayaraq, biz hər kəsin polisiyik və hər kəsin yanında yer alırıq, amma bəzi insanlar var ki, səbrimizi zəiflik kimi qəbul etməyə cəhd edirlər. Bəli, Ermənistan qanunvericiliyində göstərildiyi kimi, polis güc tətbiq etdi və tətbiq etməyə davam edəcək". Ermənistan İstintaq Komitəsi insidentlə bağlı polisə müqavimət və xuliqanlıq maddələri ilə cinayət işi qaldırıb. Etiraza qoşulanların ailə üzvləri iddia edirlər ki, mülki geyimdə olan polislər öz həmkarlarına daş atıb və vəziyyəti gərginləşdiriblər. Onlar əlavə ediblər ki, yaralıların sayı rəsmi rəqəmlərdə göstərildiyindən daha çoxdur. Saxlanan şəxslərin bir neçəsinin aparıldığı yer məlum deyil, bəzi şəxslər isə evlərində həbs edilib. "Qarabağ klanı" bəyan edir ki, baş verənlər ölkədə diktatura hakimiyyətinin qurulmasının göstəricisidir və bu hala qarşı aksiyalar davam etməlidir.

Belə bir vaxtda "Qarabağ klanı" Paşinyanla ordu arasında dərinləşməkdə olan uçurumdan da istifadə etməyə can atır. Belə ki, Paşinyan ordudakı zabitlərin əksəriyyətini oğru adlandırıb. Erməni siyasi xadim Volodya Ovannisyan isə bu fonda bildirir ki, Paşinyan və onun komandasının bu mövzuda davranış tərzi əvvəlki hakimiyyətlə müqayisədə daha biabırçıdır: "Misal olaraq, heç bir yerdə bugünədək işləməyən bir şəxsin ədliyyə naziri təyin edilməsi və onun təmtəraqlı fərdi yaşayış evinin cəmiyyət tərəfindən görülməməsi üçün ata evinə köçməsi faktını göstərə bilərəm. Yeni hakimiyyətə gələn şəxslərin var-dövlət və mülkiyyətlərinin naməlum mənbələrinin açıqlanmasını tələb edirəm".

O qeyd edib ki, Paşinyan və onun komandası Ermənistan tarixi üçün bir ləkədir:

"Ordudakı zabitləri ağızdolusu oğru adlandıran Paşinyana demək istəyirəm ki, yeni hakimiyyətə gələnlərin var-dövlətini və illərlə məsul vəzifələr tutmaqla orduda xidmət edənlərin mülkiyyətlərini müqayisə etsin. Bu günlərdə bir qrup zabit heyəti ilə görüşdüm və onlar dedi ki, Paşinyanın mətbuat konfransında ordu zabitlərinin oğru və siçovul kimi ordunu talan etmələri barədə alçaq bəyanatına görə özlərini təhqir olunmuş hesab edirlər.

Polkovnik, polkovnik-leytenant rütbəsində olan ordunun zabitləri, korpus komandirinin müavinləri, alay komandirləri olmuş şəxslər bu gün çörək problemi yaşayırlar. İndiki hakimiyyətin 27-28 yaşındakı mənsublarının malik olduğu var-dövlətin heç bir qisminə də sahib deyillər. Zabitlərin dediyini Paşinyana ötürmək bildirmək istəyirəm ki, "Nikol Paşinyan, sən sadəcə yalançısan". Eyni zamanda öz fikirlərimi də əlavə edərək, Nikol Paşinyanın yalançı olduğunu vurğulayıram". Belə vəziyyətdə hakimiyyətlə ordu arasında münasibətlərin daha da kəskinləşməsi gözlənir.

***Tahir TAĞIYEV***

**Mərkəzi Bankın yenidən müdaxiləsi olmasa, yaxın tezlikdə manatın avro, dollar kimi valyutalar qarşısında əhəmiyyətli dərəcədə güclənməsi gözlənir. Buna səbəb ABŞ və Avropanın öz valyutalarını ucuzlaşdırmaq üçün hərəkətə keçməsi, eyni zamanda yeni qlobal "valyuta müharibəsi"nə rəvac verməleridir. Artıq dünyanın əksər nəhəng banklarının və investisiya fondlarının analitikləri yaranmış vəziyyətdə həyəcan təbili çalır.**

# Qlobal "valyuta müharibəsi" manatı bahalaşdırır - narahat təhlillər başladı...



Onlar bildirir ki, dünya üzrə ticarətin zəifləməsi və yavaşlaması fonunda qlobal "valyuta müharibəsi" başlayıb.

Baş verənlər fonunda "RİA Novosti" yazır ki, bununla bağlı olaraq artıq dollar və avronun ucuzlaşması gözlənir: "Ticarət müharibələri dünya iqtisadiyyatını əməlli-başlı sarsıdıb. Buna görə də mərkəzi bankların milli iqtisadiyyatları dəstələmək üçün müxtəlif stimullaşdırıcı tədbirlər görəcəyini gözləmək olar. Hazırda iqtisadiyyatı dəstəkləməyin yeganə yolu valyutanın zəifləməsidir. Bu, ixrac olunan malların dünya bazarında rəqabətə davamlılığını artıracaq. Lakin bir neçə ölkə milli valyutasını zəiflətsə, bu, valyuta müharibəsinin başlaması demək olacaq. Yeri gəlmişkən, "Bank of America Merrill Lynch" investisiya bankının analitikləri hesab edirlər ki, belə bir müharibə artıq başlayıb və dünyanın bütün aparıcı ölkələrinin bankları bu müharibədə gizli olaraq iştirak edir.

Qeyd edək ki, bir müddət öncə ABŞ prezidenti Donald Tramp Avropa Mərkəzi Bankının sədri Mario Draqini avronu zəiflətməkdə qınayıb. Bununla yanaşı, Ağ Ev rəhbəri Çini biləərəkdən yuanı ucuzlaşdırmaqda, bu yolla ixracatın dəyərini aşağı salmaqda və ABŞ-la ticarət balansını pozmaqda günahlandırıb. Tramp, həmçinin, dolların bahalı olmasından gileylənərək, bunun Amerika mal və xidmətlərinin ixracına mane olduğunu deyib: "Çin və Avropa valyutaları ilə manipulyasiya etməklə məşğuldur. Səbəb ABŞ-la rəqabətdir. Biz də axmaq olmamalı, baş verənləri sadəcə izləməməli və eyni şeyi etməliyik". ABŞ liderinin bu sözləri artıq Uoll-Stritdə spekulyasiyalar dalğasına səbəb olub. Analitiklər belə bir qənaətə gəliblər ki, Tramp yaxın günlərdə dolların devalvasiyasına dair qərar qəbul edəcək. Qeyd edək ki, iyulun ortalarında Tramp köməkçilərinə dolların məzənnəsinin zəifləldilməsini götür-qoy etməyi tapşırıb.

Dünyanın nəhəng investisiya fondu PIMCO da mərkəzi bankların, o cümlədən Federal Ehtiyatlar Sisteminin biləərəkdən milli valyutaları zəiflətdiyini bəyan edib. Lakin bir çox analitik milli valyutaların zəifləldilməsinin doğru qərar olmadığını düşünür. Məsələn, "Bank of America" ekspertlərinin fikrincə, Trampın zəif dollar siyasəti iqtisadi artımı sarsıda bilər, belə ki, bu strategiya uzunmüddətli perspektivdə ölkə borclarının dəyərini artıracaq. Siyasət dolların stabilliyinə qarşı yönəlsə, xaricilər Amerikanın dövlət borcunu maliyyələşdirməyəcək. Dollar isə dünyanın ehtiyat valyutası kimi qəbul edilir və ABŞ tamamilə onun bu imicindən asılıdır. Amma görünür, bu istiqamətdə ABŞ-ın mövqeyi getdikcə zəifləyir".

Ekspertlər xatırladır ki, hər bir dövlət valyutanın ucuzlaşdırılması məsələsində administrativ və yaxud monetar siyasətlə müəyyən tədbirləri görür. Məsələn, avronun indiyə qədər ucuz qalması Mario Draqinin ən böyük xidmətlərindən biridir. O, avronu ucuz saxlamaqla Avropa mallarını kifayət qədər rəqabətə davamlı etdi və ixracını stimullaşdırdı. Avropa bunu monetar siyasətlə, Çin isə adminstrativ yolla həyata keçirir. Hər iki imkan Amerikada məhduddur. Amerika kimi dövlət bunu adminstrativ yolla edə bilməz, çünki ABŞ dolları sərbəst dönərli valyutadır və burada administrativ üsulla tənzimləmələr olmur. Trampın əlində əsasən iki alət var, birinci, faiz azalması, ikincisi isə, dövriyyəyə əlavə pulun buraxılması. Amerikanın əsas yollarından biri Federal Ehtiyat Sisteminin faiz azalmasına getməsidir. Eyni zamanda, dövriyyəyə daha çox pul buraxılması da digər valyutalara nisbətən ABŞ dollarının qiymətini ucuzlaşdıra bilər. Aydındır ki, qlobal miqyasda maliyyə sahəsində baş verənlər manata da təsirsiz ötüşməyəcək. Qeyd olunduğu kimi, Mərkəzi Bank tədbirlər görməsə, manat digər valyutalar qarşısında bahalaşacaq. Bundan əlavə, məsələnin Azərbaycanın valyuta ehtiyatlarına da təsiri var. Çünki valyuta ehtiyatlarının tərkibində dollar və avronun payı yüksəkdir. Hesab edilir ki, bu pulların bir qismi artıq qızılla əvəzlənməlidir. Yəni yaranan vəziyyətdə Azərbaycan valyuta ehtiyatlarındakı dolların həcmi ilə bağlı siyasətini də yenidən nəzərdən keçirə bilər.

**Bunu artıq əksər ölkələr, məsələn, Rusiya, Çin, Türkiyə və digərləri edir. Onlar valyuta ehtiyatlarındakı dolları daha çox qızılla əvəzləyir. Azərbaycan isə ötən ildən qızıl ehtiyatlarını artırır. Bu həcmin daha çox olması da istisna edilmir.**

***Nahid SALAYEV***

**Son günlər buğdanın satış qiyməti 10 qəpik bahalaşıb. Ötən il bu vaxtlar kiloqramı 23-25 qəpiyə satılan buğda hazırda 38-39 qəpiyə, kiloqramı 25-27 qəpiyə satılan arpa isə hazırda 35-38 qəpiyə satılır. Buğda ötən ilə nəzərən 55-65 faiz, arpa isə 40-41 faiz səviyyəsində bahalaşıb.**

# Buğda 38-39 qəpiyə qalxdısa - çörək bahalaşacaqmı?...



## *Pərviz Heydərov: "Daxildə buğdanın satış qiymətinin artması o demək deyil ki, bu hal un məhsullarının qiymətinə təsir edəcək"*

Buğdanın satış qiyməti bahalaşdığı üçün bəzi ekspertlər zənn edirlər ki, bu hal çörəyin satış qiymətinə də təsir edə bilər. Ancaq digər ekspertlər isə bunun əksini düşünürlər. Onların fikrincə, buğdanın satış qiymətinin 23-25 qəpikdən 38-39 qəpiyə yüksəlməsi müvəqqətidir.

İqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, buğdanın satış qiymətinin qalxmasının səbəbi adıçəkilən məhsulun biçilməsi ilə əlaqədardır: "Ehtiyatda olan məhsullar hazırda satışa çıxarıldığı üçün, bəzi işbazlar qiyməti əvvəlkinə nisbətən yüksək edir. Bu səbəbdən hazırda buğda əvvəlki qiymətindən 10 qəpik artıq müştəriyə təqdim olunur. Ancaq məlum qiymət artımı çörəyin qiymətinə və istehsalına heç bir təsir etməyəcək. Çünki ölkədə istehsal və istehlak olunan un və un məhsullarında xammal baxımından yerli istehsala məxsus məhsuldan az istifadə edilir. Daxildə buğdanın satış qiymətinin artması o demək deyil ki, bu hal un məhsullarının qiymətinə təsir edəcək. Nəzərə almaq lazımdır ki, un məhsullarının istehsalı üçün lazım olan yerli xammal keyfiyyət baxımından yararlı məhsul hesab olunmur".

*"Buğdanın satış qiymətinin 10 qəpik artması çörəyin istehsalına və satış qiymətinə..."*

Həmsöhbətimizin sözlərinə görə, bu məhsullar müvafiq istehsalçı dairələr tərəfindən tədarük olunur.

**Ancaq istehlak olunan çörək məmulatlarında istifadə olunan məhsullar idxal olunan xammaldır: "Bu səbəbdən də buğdanın satış qiymətinin 10 qəpik yüksəlməsini əsas gətirən bəzi ekspertlərin narahatlığına əsas yoxdur. Çünki qiymət artımı müvəqqətidir. Bu hal çörəyin qiymətinə heç bir təsir etməyəcək".**

***Günel CƏLİLOVA***

**Ermənistanda fəaliyyət göstərən "Metsamor" atom elektrik stansiyasının (AES) region üçün böyük təhdid yaratması barədə dəfələrlə deyilsə də, hələlik onun fəaliyyətinin dayandırılması və ya məhdudlaşdırılması yönündə hansısa real addımlar atılmır. Stansiya isə təkcə seymik zonada yerləşməsi və burada köhnə avadanlıqların mövcudluğu baxımından təhdid mənbəyi deyil.**

# İrəvanda "Metsamor" AES beynəlxalq nüvə qaçaqmalçılığının əsas mənbəyinə çevrilir



Real vəziyyət göstərir ki, "Metsamor" getdikcə nüvə qaçaqmalçılığının əsas mənbələrindən birinə çevrilir. Hətta iş o yerə çatıb ki, erməni mediası özü belə bu xüsusda həyəcan təbili çalır.

Xatırladaq ki, beynəlxalq standartlara əsasən, 5 və ondan yuxarı şiddətdəki zəlzələlərin başvermə ehtimalı olan bölgələrdə atom stansiyasının inşasına icazə verilməməlidir. Ermənistandakı AES isə SSRİ dövründə heç bir önləm alınmadan 9 bal gücündə zəlzələ yaşana biləcək bir bölgədə salınıb. Avropa Şurası Parlament Assambleyasının qəbul etdiyi sənədlərdə dəfələrlə bu AES-in aktiv seysmik zonada yerləşdiyini və bütün Qafqaz regionu üçün potensial təhlükə mənbəyi olduğunu narahatlıqla ifadə etməsinə baxmayaraq, AES hələ də fəaliyyət göstərməkdədir. Azərbaycan və Türkiyə dəfələrlə Beynəlxalq Atom Enerjisi Agentliyinə müraciət edərək, AES-in region üçün real təhlükə mənbəyi olduğunu bildirib. Lakin Ermənistan rəhbərliyi heç bir müraciəti nəzərə almamaqda davam edir. Əksinə, artıq məlumdur ki, İrəvan hətta yeni stansiya tikmək istəyir və bunun üçün Rusiyadan kredit almağa da çalışır. Düzdür, Ermənistanın "Jamanak" nəşri yazır ki, Kreml bu pulu İrəvana vermək fikrində deyil. Nəşrə görə, Ermənistanın yeni hakimiyyəti köhnə hakimiyyətin siyasətini davam etdirir və bu, Ermənistan üçün heç də yaxşı nəsə vəd etmir: "Belə ki, praktiki olaraq yerinə yetirilməsi mümkün olmayan şeylər barədə danışırlar. İrəvan bəyan edib ki, guya Rusiya tərəfi ilə yeni atom stansiyasının tikintisi ətrafında danışıqlar aparırlar. Lakin Ermənistanın 4-5 milyard dollar dəyərində layihəni maliyyələşdirmək üçün öz pulu yoxdur. Rusiya isə bir neçə dəfə başa salıb ki, bu həcmdə kredit verə bilməz, ən yaxşı halda məbləğin 20%-ni ayıra bilər. Ermənistanda isə kosmik miqyasda layihələr var, sadəcə pul yoxdur. Buna rəğmən, Ermənistan baş nazirinin müavini Tiqran Avinyan Birləşmiş Ştatlara səfəri çərçivəsində Ermənistanın yeni atom stansiyasının tikintisi ətrafında Rusiya ilə aparılan danışıqları haqqında danışıb. Bu danışıqların detalları məlum olmasa da, maraqlıdır ki, söhbət yeni danışıqlardan, yoxsa köhnə danışıqlara yeni təkan verilməsindən gedir.

Xatırladaq ki, Rusiya ilə yeni atom stansiyasının tikintisi ətrafında Ermənistan hələ Serj Sarkisyanın prezidentliyi dövründən danışıqlar aparsa da, bu, nəticəsiz qalmışdı. İstənilən halda, 2008-ci ildə erməni parlamentinə və xalqına ünvanlanmış məlum və bu formatda olan yeganə müraciətində Serj Sarkisyan meqa layihələr haqqında, o cümlədən, İran-Ermənistan dəmir yolu, ümumermənі bankı və yeni atom stansiyasının inşası haqqında danışıb. 10 illik prezidentlik dövrü başa çatsa da, bu 3 layihədən heç biri nəinki tam praktik görünüşü, hətta müzakirə mövzusu mərhələsi belə yaşamayıb. Bunun səbəbi isə başqa bir danışıq mövzusudur.

Eyni zamanda, Moskva atom stansiyasının tikintisi sahəsində Türkiyə ilə çoxmilyardlı layihə həyata keçirir. Türkiyə və Azərbaycan isə, davamlı olaraq, Ermənistanın atom enerjisinə qarşı çıxırlar. Rusiya İrəvana fəaliyyətdə olan atom stansiyasının istismarının 10 il müddətinə artırılması məqsədilə kredit verir. Lakin digər tərəfdən, Ermənistanda yeni atom stansiyası lazımdır. Köhnə stansiyanın resursları ciddi şəkildə məhdud olmaqla eyni şəkildə qalmaqda davam edir".

"Armenianreport" portalı isə stansiya ilə bağlı məsələnin digər narahatlıq yaradan tərəfinə nəzər salır. Portal yazır ki, "Metsamor"da mövcud olan radioaktiv maddələr Ermənistan sərhəd keçid məntəqəsini uğurla keçərək, yalnız Gürcüstan tərəfində aşkarlanır. Qeyd olunur ki, Ermənistandakı keçid məntəqəsindən radioaktiv maddələr hansı şəkildə keçirilirsə, hüquq-mühafizə orqanlarının xəbəri olmur:"Məlum olduğu kimi, iyulun 11-də Gürcüstanın Sadaxlı keçid məntəqəsində hüquq-mühafizə orqanları Gürcüstan ərazisindən keçirməklə 71 qram "Torium-232" radioaktiv maddəni Rusiyaya aparmağa cəhd edən bir vətəndaşı saxlayıb. Burada həmin vətəndaşın Ermənistanın Baqradaşen keçid məntəqəsindən bu maddəni necə keçirə bildiyinə dair sual yaranır. Baqradaşen keçid məntəqəsi radioaktiv maddələrin aşkarlanması üçün istifadə edilən sistemlərlə təchiz olunduğu halda bu baş verməyib. Bu ilk hal deyil. Son 10 ildə Gürcüstan hüquq-mühafizə orqanları tərəfindən radioaktiv maddələrin qanunsuz dövriyyəsinə dair aşkarlanan ən azı 10-cu hadisədir. Baş verən hadisələrin böyük əksəriyyətində radioaktiv maddələrlə saxlanan şəxslərin Ermənistan vətəndaşı olduğu aşkar edilib və faktlar əsasında 14 Ermənistan vətəndaşı həbs edilib. Radioaktiv maddələrin dövlətlərarası dövriyyəsi kənara qoyularaq, bu maddələrin sərhədləri keçməsinə qarşı mübarizənin səmərəliliyi nəzərdən keçirilir. Bu, son 10 il ərzində Gürcüstan hüquq-mühafizə orqanları tərəfindən Sadaxlı keçid məntəqəsində Ermənistandan radioaktiv maddələrin gətirilməsi cəhdi üzrə aşkarlanan 3-cü məlum hadisədir. İlk hadisə 2009-cu ildə ("Sezium-137"), ikinci hal 2014-cü ildə ("Sezium-137") baş verib. Lakin radioaktiv maddələrin Ermənistan keçid məntəqəsində aşkarlanmasına dair hər hansı məlumat yoxdur. Beləliklə də, ən azı 3 baş verən hadisə zamanı radioaktiv maddələr Ermənistan sərhəd keçid məntəqəsini uğurla keçərək, yalnız Gürcüstan tərəfində aşkarlanıb. Baxmayaraq ki, sərhədin Gürcüstan tərəfində radioaktiv maddələrə nəzarət ideal deyil və bir çox hallarda bu radiaktiv maddələr Gürcüstanın daxilində aşkarlanıb, lakin belə nəticəyə gəlmək olar ki, Ermənistan tərəfindəki nəzarət olduqca zəifdir. Eyni zamanda Ermənistan tərəfində radioaktiv maddələrin sərhəddən keçirilməsi cəhdinin qarşısının alınmasına dair heç olmasa bir faktın belə olmadığını nəzərə alsaq, sərhəd keçid məntəqələrində radioaktiv maddələrin aşkarlanması üçün "Yantar sistemi"nin fəaliyyətini şübhə altına almaq olar. Keçirilən maddə daha tez radiasiyaya uğradığı üçün asan aşkarlansa da, nədənsə, keçid məntəqəsində bundan şübhələnən olmayıb. İyulun 11-də "Torium" radoaktiv maddənin qanunsuz dövriyyəsinin aşkarlanması üzrə ilk hadisə idi. Məsələ burasındadır ki, "Torium-232" kifayət qədər passiv parçalanır və bunu radioaktiv maddələrin aşkarlanması üzrə avadanlıqlarla görmək daha rahatdır. Buna görə də sərhəddə əsasən "Sezium-137"ni aşkarlamaq mümkün olur. Deməк bu maddə daha tez radiasiyaya uğrayır və asan aşkarlanır. Müqayisə üçün qeyd edək ki, "Uran-238" və ya "Torium-232"in yarım parçalanması milyard illərlə davam edir. Dövlətlərarası tədbirlər zamanı əsasən "Uran-238" maddəsinin qanunsuz dövriyyəsi halları aşkarlanır. Son 15 ildə 7 hal qeydə alınıb.

Bütün radioaktiv elementlər bu və ya digər şəkildə "Metsamor" atom stansiyasında mövcuddur. Bu, qismən nüvə yanacağı və qismən nüvə tullantıları halında mövcuddur. Atom stansiyasında radioaktiv elementlərin həcmi tonlarla ölçülsə də, orada təmiz "Sezium-137" yoxdur. Ehtimal edilir ki, radioaktiv maddələr Sovet İttifaqından qalmış və tərk edilmiş zavodlardan, laboratoriyalardan və ya digər istehsal sahələrindən əldə edilir. Gürcüstan hüquq-mühafizə orqanlarının aşkarladığı faktları mühakimə edərək, Ermənistanın əsasən radioaktiv maddələr təminatçısı kimi xidmət etdiyi nəticəsinə gəlmək olar". Məhz bu şəraitdə hesab edilir ki, artıq "Metsamor"un bağlanması üçün dünya daha qəti mövqe sergiləməlidir.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# "Qarabağ klanı"nın hakimiyyətdən gedişi də Qarabağ həllinin düyününü aça bilmir - hərb yolu qaçılmaz olur...

**Ermənistan daxilində baş verən olaylar bu ölkədə gərginliyin artan xətt üzrə getdiyini aydın şəkildə nümayiş etdirir. Bu durumda isə İrəvanın Dağlıq Qarabağ münaqişəsinin həllində effektiv addımlar ata bilməsi də ciddi sual altına düşür. Elə bundan irəli gəlir ki, konfliktin həlli istiqamətində qarşı tərəflə aparılan danışıqlar hansısa ciddi nəticə vermir.**

Belə vəziyyətdə İrəvanın əsas niyyəti isə danışıqlar prosesini uzatmaq, münaqişənin dinc müstəvidə çözümünü əngəlləməkdir. Bunu elə bu günlərdə ABŞ-ın ölkəmizdəki səfiri Örl Litzenberqerlə görüşündə müdafiə naziri, general-polkovnik Zakir Həsənov da xüsusi olaraq diqqətə çatdırdı. Ermənistanın işğalçılıq siyasətinin davam etdiyini vurğulayan nazir, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı səylərə baxmayaraq, sülh danışıqlarının rəsmi İrəvan tərəfindən qəsdən yubadıldığını vurğulayıb. Aydındır ki, hadisələrin bu səpkidə inkişafı nəticə etibarı ilə alternativ variantın, yəni savaşın başlanma ehtimalını yüksəldir.

Hərbi işğal faktorunun aradan qaldırılması, Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunması və bu ərazilərdən didərgin salınmış məcburi köçkünlərin öz evlərinə geri qayıtmasının təmin olunması istiqamətində İrəvanın hansısa real addımlar atmaması, əslində Bakıya başqa seçim yolu da qoymur. Elə amerikalı ekspert Piter Teys də qeyd edir ki, Dağlıq Qarabağın Ermənistan tərəfindən işğalı dayandırılmasa, Azərbaycanın güc variantını işə salması qaçılmazdır. Ekspert qeyd edir ki, Azərbaycan Dağlıq Qarabağda silahlı münaqişənin həlli istiqamətində çox ehtiyatlı, praqmatik və ardıcıl siyasət aparsa da, İrəvan barədə bunları demək mümkünsüzdür: "Dağlıq Qarabağ Azərbaycanın suveren ərazisidir. Lakin davam edən münaqişə bütün Avropa, Mərkəzi Asiya və Yaxın Şərqdə təhlükəsizlik üçün ciddi fəsadlar törədə bilər". Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlar prosesinin təşviqi üçün zəruri olan addımlara gəldikdə isə, Teys hesab edir ki, ilk növbədə Ermənistan qoşunları işğal olunmuş ərazilərdən çıxarılmalı və doğma yurdlarını tərk etmiş azərbaycanlı icmasının qayıtması üçün lazımi şərait yaradılmalıdır: "Bu iki şərt günahsız azərbaycanlıların qanının axmasına səbəb olmuş 30 illik silahlı münaqişənin sülh yolu ilə nizamlanmasını təmin edəcək". Eyni mövqe rusiyalı ekspert Dmitri Fetisov tərəfindən də səsləndirilir. Onun sözlərinə görə, hazırda İrəvanın Qarabağ siyasəti daha çox Ermənistanın özünə ziyan vurur: "Münaqişənin davam etdiyi müddət ərzində Ermənistanda tənəzzül, demoqrafiya və digər istiqamətlərdə problemin də miqyası artıb. Azərbaycanda isə bunun əksi qeydə alınır. Məhz bunlardan Ermənistan müvafiq nəticələr çıxarmalıdır. Həqiqətən də hamını qane edə bilən həll yolu mövcud deyil. Əks halda, Qarabağ məsələsi çoxdan bağlanmışdı. Hətta Ernənistanda hakimiyyətin dəyişməsi, "Qarabağ klanı"nın getməsi heç bir tərpənişə gətirib çıxarmadı. Nikol Paşinyanın Qarabağ üzrə bütün bəyanatları onun mövqeyinin sarsılmaz olduğunu deyil, münaqişənin nizamlanmasını uzatmaq cəhdlərini təsdiq edir.

O, əslində məsələnin həllini istəmir, sadəcə, bu mövzudan istifadə edir. Lakin olduqca uğursuz oyunçudur. Axı hətta Ermənistan cəmiyyətində belə, Paşinyanın bu cür yanaşmasına qarşı çıxırlar. Erməni lider tərəfindən açıq-aydın populist yanaşma vaxtı uzatmaq istəyi ilə əlaqədardır. Bu isə o deməkdir ki, Paşinyanı indiki vəziyyət qane edir, o, Qarabağ üzrə irəliləyişlərdə maraqlı deyil. Məsələ danışıqlar yolu ilə həll olunmalıdır. Aydındır ki, kompromis tapmaq çətin olacaq. Lakin buna can atmaq lazımdır. Bu baxımdan Paşinyanın mövqeyi dialoq imkanı ilə ziddiyyət təşkil edir. Bu onu göstərir ki, Paşinyan vəziyyəti yaxşı anlamır və səmərəli dialoq formatında iştiraka hazır deyil". Ekspert vurğulayır ki, məsələyə bu tərzdə yanaşma Ermənistanın özünün əleyhinə işləyir, çünki yeni savaşı tətikləyir. Onun sözlərinə görə, yeni savaşın başlanması Ermənistan onsuz da zəif mövqeyinin daha böyük ölçüdə sarsılması ilə nəticələnəcək.

Digər ekspertlər də diqqəti buna yönəldir ki, indilikdə Ermənistan regionun geosiyasi sabitlik baxımından ən zəif ölkəsidir. Nikol Paşinyan hakimiyyətə gələndən qeyri-müəyyənlik daha da artıb. Hələ də Ermənistan rəhbərliyinin dəqiq hansı geosiyasi xətti seçdiyi aydın deyil. Onun qonşu dövlətlərə istiqamətlənmiş siyasətinin məzmunu da risqlərlə doludur. Elə Qarabağ məsələsində də Ermənistan rəhbərliyinin münaqişənin həllində çox ziddiyyətli mövqe tutduğu aydın görünür. Həm regionun geosiyasi gələcəyi, həm də münaqişənin həlli perspektivləri baxımından bu durum risqlidir və onun aradan qaldırılması lazımdır. Bu kontekstdə böyük dövlətlərin bundan sonra Ermənistana yönəlik siyasətlərində hansı məqamlara üstünlük verəcəklərindən çox şey asılıdır. Onlar ancaq bu bağlılıqda yenilik etməklə vəziyyəti müsbətə doğru dəyişə bilərlər. Əks təqdirdə həmin güclərin də istəmədiyi yeni Qarabağ savaşının başlanması qaçılmaz sayılır. Bunu digər rusiyalı politoloq İqor Şatrov da təsdiq edir: "Məlumdur ki, uzun illər ötsə də, nəticə yoxdur. Lakin aktiv hərbi əməliyyatlar da getmir. Bu, klassik dondurulmuş münaqişədir. Demək olar ki, beynəlxalq danışıqların iştirakçıları çox da effektiv işləmirlər. Amma burada vacib olan başqa məsələdir. Hətta tərəflərdən biri haqlı olmasa belə, onlarda güzəştə getmək istəyi olmalıdır. Biz dünya ictimaiyyətinin bu münaqişəyə necə baxdığını bilirik. BMT Təhlükəsizlik Şurasının qətnamələrini xatırlamaq kifayət edir. Aydındır ki, söhbət Azərbaycanın işğal edilmiş rayonlarından gedir. Bəs məsələni bundan sonra necə həll etməli? Hər halda yalnız bir yol, yəni güzəştlər qalır. Bu, dövlətlərarası münasibətlərdən qaynaqlanan məntiqdir. Təbii ki, çətin qərardır, lakin tərəflər addım-addım razılığa gələ bilərlər. İlk addımı isə Ermənistan atmalıdır. Başlanğıc üçün Dağlıq Qarabağ ətrafındakı işğal edilmiş rayonları azad etmək lazımdır. İrəvan bundan ehtiyat edirsə, tədricən hərəkət edə bilər. Rayonları hissə-hissə azad edə və silahsızlaşdıra bilər. Bunu uzun zaman kəsiyində etmək olar, bu vaxt ərzində Azərbaycanın da hansısa qarşılıqlı addımlar atmaq istəyi yarana bilər. Lakin təkrar edirəm ki, ilk addımı Ermənistan atmalıdır. Bunun üçün böyük güclərin Ermənistana təzyiqi də artıq real olmalıdır. Qarabağ münaqişənin həlli Qafqazda sabitlik baxımından çox önəmlidir". Bütün bunlar üçün, yuxarıda qeyd olunduğu kimi, böyük güclərin Ermənistana qarşı real təzyiq rıçaqlarını işə salması olduqca vacibdir. Bu, həm də Ermənistanın düşdüyü böhrandan xilası üçün mühüm əhəmiyyət kəsb edir. Belə vəziyyətdə, əslində o da aydın görünür ki, Ermənistan cəmiyyətində Dağlıq Qarabağla bağlı vahid mövqe yoxdur. Cəmiyyətin bir qismi reallıqları görməyə başlayır. Onlar hərbi yolla işğal etdikləri torpaqları saxlaya bilməyəcəklərini anlayırlar. Görünür, bunu hakim dairələrin də dərk etməsi vacibdir. Əks təqdirdə, yeni Qarabağ savaşı ilə Ermənistan adlı dövlətdən əsər-əlamət qalmayacaq. Qeyd edilənlərin bu dərəcədə aydın olmasına baxmayaraq, Ermənistanın qeyri-müəyyən mövqeyində qalması sülh prosesini əngəlləyir. Bunu Azərbaycan tərəfi dəfələrlə ən yüksək səviyyədə bəyan edib.

İndi Bakının əsas istəyi budur ki, real durumu beynəlxalq ictimaiyyətin, xüsusən də həmsədrlərin anlaması və konkret addımlar atması baş tutsun. Yəni bundan sonrakı gedişat həmsədrlərin nə dərəcədə fəal olacağından, onların obyektiv və ədalətli mövqe tutacaqlarından asılıdır. Konkret desək, ATƏT-in Minsk Qrupunun həmsədrləri Ermənistanı düz yola gətirməli və zərurət olsa, Ermənistana təzyiq edilməlidir. İrəvanın bu günə qədər prosesi dalana dirəməsi, uzatması, müxtəlif bəhanələr gətirməsinə son qoyulmalıdır. Əks halda danışıqlar nəticəsiz qalacaq və bu da, istər-istəməz, savaşa yol açacaq. Bunun qarşısını almaq üçün Rusiya, ABŞ və Fransa qətiyyət göstərib, təcavüzkarı konstruktiv mövqeyə gətirməlidirlər. Artıq buna ehtiyac daha çox duyulur. Məsələ yalnız Azərbaycanın haqlı tələblərinin yerinə yetirilməsi ilə bağlı deyil. Bunu həm qlobal proseslərin dinamikası, həm də regionda yaranmaqda olan mürəkkəb geosiyasi mənzərə tələb edir. Çünki ekspertlər də əmindirlər ki, regionda risq faktoru getdikcə daha da güclənir. Bunun perspektivdə daha böyük təhdid yaratmasının qarşısını almaq üçün isə Qarabağ münaqişəsinin həlli zəruri şərt qismində çıxış edir.

Digər tərəfdən, Qarabağ münaqişəsinin həllinin uzanması Ermənistanın özünün də məhvini sürətləndirir. Ermənistan bütün istiqamətlərdə, o cümlədən ordu quruculuğunda, sosial-iqtisadi inkişafda, geosiyasi aspektdə Azərbaycandan xeyli geridə qalır. Azərbaycanın sürətli inkişafı fonunda bu fərq getdikcə daha aydın surətdə hiss olunur. Ekspertlər bu durumda belə nəticə çıxarırlar ki, Azərbaycanın Ermənistandan çox güclü olması qalibiyyət üçün İrəvana heç bir şans vermir. Əksinə, Ermənistan məsələnin həllini yenə də uzatmaq istəsə, Azərbaycan ordusu daha genişmiqyaslı əməliyyat keçirib, İrəvana daha sarsıdıcı zərbə vura bilər. Özü də bu dəfə hərbi proseslər lokal məkanda getməyəcək. Çünki Azərbaycan 2016-cı ilin aprel döyüşlərindən lazımi nəticələri çıxarıb, daha koordinasiyalı, güclü və sürətli fəaliyyəti ilə qısa müddətdə erməni silahlı qüvvələrini darmadağın edə bilmək qüdrətinə malikdir. Məhz qeyd edilənləri indi İrəvanın nəzərə alıb müvafiq addımlar atması, Qarabağ münaqişəsinin həllini tezləşdirməsi Ermənistanın gələcəyi üçün çox vacibdir. Hər halda, Azərbaycan yaxın tezlikdə münaqişənin çözümü istiqamətində Ermənistanın lazımi addımlar atmasını gözləyir. Əks təqdirdə Bakı İrəvanı buna güc yolu ilə vadar etməli olacaq.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Dünya maliyyə bazarlarında baş verən son proseslər, demək olar ki, indi bütün ölkələr tərəfindən xüsusi diqqətlə izlənməkdədir. Belə görünür ki, yaşanan olaylar fonunda qızılın qiyməti əhəmiyyətli dərəcədə yüksələcək, əsas yığım valyutalarından olan dollar əhəmiyyətli dərəcədə ucuzlaşacaq. Yaranmış durumda milli valyutaların, eləcə də avronun bahalaşması proqnozlaşdırılır.**

# Azərbaycan öz qızıl ehtiyatlarını artırır



Maliyyə sahəsində cərəyan edənlər Azərbaycan tərəfindən də xüsusi diqqətlə izlənir. Çünki Azərbaycan valyuta ehtiyatlarının müəyyən hissəsini ABŞ dollarında saxlayır. Eyni zamanda, ABŞ səhmlərinə də Azərbaycan müəyyən həcmdə vəsait yatırıb. İndilikdə isə ABŞ səhmlərinin kütləvi şəkildə satışı qeydə alınır və əksər investorlar, belə demək mümkünsə, ondan yaxasını qurtarmağa çalışır. Bu gedişlə dolları və ABŞ şirkətlərinin səhmlərini müsbət heç nə gözləmir. Xarici sərmayədarların dollar aktivlərindən canlarını qurtarmaq üçün ABŞ istiqrazlarından imtina etməsi fonunda Azərbaycanın da yaxın təzlikdə bu istiqamətdə yeni iqtisadi siyasətə start verməsi istisna olunmur. "RİA Novosti" portalı yazır ki, böyük iqtisadiyüyata malik ölkələr artıq ABŞ istiqrazlarını kütləvi şəkildə satır. Məsələn, Rusiya müəyyən müddət ABŞ xəzinə istiqrazlarına ən böyük sərmayə yatırımı edən ölkə olub. 2010-cu ildə Rusiya Mərkəzi Bankının xəzinə istiqrazlarına etdiyi sərmayə yatırımları 176 milyard dolları keçirdi. Lakin Vaşinqtonun sanksiya təzyiqləri səbəbindən Moskva 2014-cü ildən etibarən vəsaitlərini ABŞ aktivlərindən çıxarmağa başlayıb. 2018-ci ilin yazında növbəti sanksiya dalğasından sonra Rusiya Bankı xəzinə istiqrazlarının kütləvi satışını həyata keçirib. Belə ki, bank xəzinə istiqrazları portfelini iki dəfə 96,5 milyard dollardan 48,724 milyard dollara qədər azaldıb. Bu ilin əvvəlinə olan məlumata əsasən, Mərkəzi Bankın balansında cəmi 14 milyard dollar həcmində xəzinə istiqrazı qalıb. ABŞ Maliyyə Nazirliyi isə bildirir ki, mayda Rusiya bu aktivləri 12 milyard dollaradək azaldıb.

Rusiya Mərkəzi Bankı bu qiymətli kağızların satışından əldə etdiyi pulla qızıl alır, çünki bu dəyərli metal valyuta və sanksiya risqlərindən ən yaxşı sığortadır. On il ərzində Rusiyanın beynəlxalq ehtiyatlarında qızılın payı təqribən on dəfə artıb. Hazırda Mərkəzi Bankın balansında təqribən 90 milyard dollar dəyərində 2190 ton dəyərli metal var. Bu bütün postsovet dövrü üçün rekord rəqəmdir. O da qeyd olunur ki, Amerika iqtisadiyyatına olan etibar gündən-günə azalır, ölkənin dövlət borcu artıq 22 trilyon dollar həddini keçib və hamı yaxşı başa düşür ki, ABŞ-ın Xəzinədarlıq Departamenti vəziyyətə nəzarəti itirib. Buna görə də, hətta ABŞ-ın müttəfiqləri dollar aktivlərindən imtina edirlər. Məsələn, Böyük Britaniya xəzinə istiqrazları portfelini 16,3 milyard dollar, Yaponiya isə 11,07 milyard həcmində azaldıb. Bu göstəriciyə görə birinci yeri Çin tutur- Pekin ticarət müharibəsi səbəbindən ümumilikdə 80 milyard dollar dəyərində xəzinə istiqrazını satıb.

Səhm bazarında vəziyyət daha da acınacaqlıdır. Xarici sərmayədarlar artıq 13 aydır ki, Amerika şirkətlərinin qiymətli kağızlarını satırlar. Bu müddət ərzində 215 milyard dollar dəyərində səhm satılıb. Bu rekord rəqəmdir. "Bank of America Merrill Lynch" investisiya bankı qeyd edir ki, iyul ayında səhmlərin kütləvi şəkildə satışı müşahidə olunub. Səhm əvəzinə isə qızıl alınır. "Bridgewater Associates" fondunun təsisçisi, tanınmış sərmayədar Rey Dalio hesab edir ki, Amerika bazarında tənəzzülün gözlənildiyi bir vaxtda qızıl gəlirlilik və risk baxımından daha əlverişlidir. Buna görə də, daha çox sərmayədar öz portfelində səhmləri qızılla əvəz edir. Bu tendensiya gələcək aylarda daha da qüvvətlənəcək. Azərbaycanın isə bütün buünlardan kənarda qalması qeyri-mümkündür. Ekspertlər bildirir ki, ölkənin qızıl ehtiyatlarını və qızıl yataqlarından "sarı metal"ın hasilatını nəzərə alanda, dünya bazarında qızılın qiymətinin qalxması Azərbaycan üçün müsbət tendensiyadır.

Artıq son bir ay ərzində "sarı metal"ın qiymətlərində 12% artım qeydə alınıb ki, nəticədə bir unsiya qızılın qiyməti 1430 dollara çatıb.

Xatırladaq ki, Azərbaycanın Dövlət Neft Fondu (ARDNF) əsas maliyyə xəzinəsi üçün "sarı metal"ın alışına 1 fevral 2012-ci ildən başlayıb. İki il ərzində 30,18 ton qızıl alınıb. Neft Fondu 2014-2017-ci illərdə qızılın alınmadığını bəyan edib. Azərbaycan hökuməti tərəfindən qızılın alışının ikinci mərhələsi 2018-ci ilin ikinci yarımilində bərpa edilib və ilin sonunadək 21 tona yaxın qızıl alınıb. Fondun məlumatına görə, bu ilin əvvəlindən etibarən dünya bazarlarından qızılın alışı davam etdirilib. Birinci rübün yekunlarına görə, 880 milyon dollar dəyərində 20,76 ton qızıl alınıb. Neft Fondunun bu ilin aprel-iyun aylarında nə qədər qızıl əldə etdiyi məlum deyil. Eyni zamanda, Dövlət Gömrük Komitəsinin statistikasına görə, 2019-cu ilin ilk beş ayı ərzində ölkəyə idxal olunan qiymətli metalın dəyəri 1,428 milyard dollar olub. Həmin qızılın əsas alıcısı yenə Neft Fondu olub. Bu isə o deməkdir ki, ARDNF, artıq planlaşdırıldığı kimi, 100 milyon tona yaxın fiziki qızıl əldə edib. Eyni zamanda, dünya bazarında qızılın qiyməti ölkədə "sarı metal" istehsalının rentabelliyinin artırılmasına və Dövlət Neft Fondunun aktivlərinin dəyərinin artmasına kömək edir. Ölkədə hasil edilən qızılın da əsas alıcığı ARDNF və Mərkəzi Bankdır.

**Bu da o deməkdir ki, Azərbaycanın valyuta ehtiyatlarında qızılın payı daha da artacaq. Ölkəmizin sahib olduğu ABŞ istiqrazlarının satışı fonunda əldə edildən gəlirə də qızıl alınması proqnozlaşdırılır.**

***Tahir TAĞIYEV***

# Ermənilər Yaponiyada "Şur" muğamı və balabanın da "axırına çıxdılar"

***Sərdar Məmmədli:*** *"Balabanın uzaq Yaponiyada "erməni aləti" kimi təqdim edilməsi növbəti erməni saxtakarlığıdır"*

***Şirzad Fətəliyev:*** *"Azərbaycan tərəfi Yaponiyaya hər hansı bir formada çatdırmalıdır ki, "Şur" da bizimdir, balaban da, bunların ermənilərlə heç bir əlaqəsi yoxdur"*



**Ermənilərin Azərbaycan mədəniyyətinə qarşı həyata keçirdikləri təxribatların miqyası get-gedə genişlənir. Bilirik ki, milli musiqi alətlərimiz də daxil olmaqla, muğamlarımızı, xalq və bəstəkar mahnılarımızı, rəqslərimizi "erməni mədəniyyəti" adı ilə qələmə verən ermənilər bu əməllərinə görə hələ də müvafiq beynəlxalq qurumlar tərəfindən cəzalandırılmayıblar.**

İndiyə qədər heç bir beynəlxalq qurum ermənilərin saxtakar əməllərinin qarşısının alınması istiqamətində heç bir addım atmayıb. Baxmayaraq ki, Azərbaycan rəsmi qaydada həm UNESCO-da, həm də digər ümumdünya təşkilatlarında ermənilərin Azərbaycan mədəniyyətinə əl uzatması məsələsini çox kəskin şəkildə gündəmə gətirib. Lakin həmin qurumlar erməni saxtakarlığının qarşısının alınmasında heç bir əməli tədbir görmürlər.

Milli musiqi alətimiz balabana uzun illərdir iddia edən ermənilər artıq dünyanın bir çox ölkəsində, o cümlədən də Yaponiyada onu "erməni aləti" kimi təbliğ edirlər. Çox təəssüf ki, ermənilər Azərbaycan musiqisi və balabanla bağlı saxtakarlığa bu dəfə yaponları da cəlb etməyə nail olublar.

Ermənistan mətbuatının yazdığına görə, sosial şəbəkədə yapon Kento Sudzuki və Yasutka Taruminin balabanla ifası yayılıb. Onlar "Şur" müğamının ladında müəyyən gezişmələr ediblər. Erməni KİV-i bunu "Dili yaman" ("Dle yaman") erməni xalq mahnısı kimi təqdim edib, bununla da yapon musiqiçilərini saxtakarlıqlarının iştirakçısına çeviriblər.

Qeyd edilənə görə, balaban ifaçısı Kento Sudzuki cari il iyunun əvvəlində Ermənistanda keçirilən "Yeni adlar" XI beynəlxalq yeniyetmə ifaçılar festivalında iştirak edib. Yapon balabançının ifasına münasibət bildirən mütəxəssislər bildiriblər ki, ermənilər yenə də Azərbaycan musiqisi və balabanı ilə bağlı saxtakarlıq ediblər.

Əməkdar mədəniyyət işçisi Sərdar Məmmədli "Bakı-Xəbər"ə bildirdi ki, bu gün Azərbaycan milli musiqi aləti olan balabana bədnam qonşularımız olan ermənilərin iddialı olması sayəsində bu milli musiqi alətimiz dünyada "erməni musiqi aləti" kimi təbliğ olunur. O bunun növbəti erməni saxtakarlığı olduğunu bildirməklə dedi ki, ermənilər balabana "duduk" adı verərək dünyanın bir sıra ölkələrində "erməni musiqi aləti" kimi təqdim etməsinin qarşısı bütün vasitələrlə alınmalıdır.

Onun sözlərinə görə, tamamilə erməni ruhuna, düşüncəsinə yad olan balabanın Azərbaycan xalqına aid milli musiqi aləti kimi dünyada təbliğ edilməsi aktual məsələyə çevrilib. S.Məmmədlinin fikrincə, balaban Azərbaycan milli musiqi aləti kimi UNESCO-ya daxil edilməlidir ki, bu məsələyə birdəfəlik son qoyulsun. "Balaban Azərbaycan milli musiqi aləti olaraq UNESCO-ya daxil edilərsə, biz onun beynəlxalq səviyyədə qorunma altına alınmasına nail olarıq. Bu həm də erməni iddiasının kökünə birdəfəlik balta vurmuş olar. Balaban Azərbaycan xalqının min illər əvvəl yaratdığı musiqi alətidir və bütün bəşəriyyət bu musiqi alətinin bizə məxsus olduğunu bilməlidir. Təəssüflər olsun ki, ermənilər uzun illərdir bizim musiqi alətimizi öz adları ilə təqdim edirlər. Balabanın uzaq Yaponiyada "erməni aləti" kimi təqdim edilməsi növbəti erməni saxtakarlığıdır. Biz bu hala qarşı mübarizə tədbirlərimizi gücləndirməliyik. Ermənilərin yaponiyalı gəncləri balaban ifaçılığına cəlb etməsi, bu alətdə ifa etmələri üçün onlara master klass keçmələri gülüncdür. Çünki ermənilər balabanın nə olduğunu bilmirlər. Öz mədəniyyətləri olmadığı üçün, başqa xalqların mədəniyyətini mənimsəyirlər və onları öz adlarına təqdim edirlər. Balabana, "Şur" muğamına qarşı irəli sürülən erməni iddiasının heç bir əsası yoxdur. Bütün dünya bilir ki, muğam Şərq xalqlarına, o cümlədən də Azərbaycan xalqına məxsusdur. "Şur" muğamı da bizim doğmamızdır. Azərbaycanda, azərbaycanlıların sıx yaşadığı digər respublikalarda çox yüksək səviyyədə yaşadılıb, təbliğ edilib. Dövlətimiz balaban sənətinin inkişafına böyük dəstək verir. Balaban ustaları hər zaman dövlətin, Mədəniyyət Nazirliyinin diqqətindədir. Aşıq sənəti, muğam sənəti, tar və kamança kimi balaban da UNESCO-ya daxil edilməlidir ki, ermənilər bir daha bu alətin adını çəkməsinlər. Yenə də deyirəm, nə balabanın, nə "Şur" və digər muğamların erməni ilə heç bir əlaqəsi yoxdur. Sadəcə, özünün heç bir mədəniyyəti, musiqi aləti olmayan bədnam qonşularımız balabanı mənimsəmək, öz adlarına çıxmaq istəyirlər. Hər yerdə balabanı öz adlarına təqdim etməyə cəhd göstərirlər. Bunun qarşısı beynəlxalq səviyyədə alınmalıdır ki, onlar bir daha balabanın adını çəkməsinlər. Bizim elə bir musiqi alətimiz yoxdur ki, ermənilər onu mənimsəmək istəməsinlər" - deyə sənətkar qeyd etdi.

Əməkdar artist, tanınmış balaban ustası Şirzad Fətəliyev "Bakı-Xəbər"ə bildirdi ki, balaban ustası kimi illərdir erməni yalanına qarşı mübarizə aparır. Balaban sənətini dünyanın bir sıra ölkələrində təbliğ etdiyini deyən Ş.Fətəliyev qeyd etdi ki, xaricilər balabana çox böyük maraq göstərirlər: "İllərdir erməni yalanına qarşı mübarizə aparıram. Balaban milli musiqi alətimiz kimi hər zaman təbliğ edilməsinə baxmayaraq, ermənilər bu musiqi alətinə qarşı iddialarını davam etdirirlər. Aşıq sənəti UNESCO-ya daxil edilib. Balaban sənəti də tarixən aşıq sənəti ilə paralel inkişaf edib. Bu baxımdan balaban sənəti də UNESCO-ya daxil edilməlidir. Balabanın Azərbaycan milli musiqi aləti kimi UNESCO-da təsdiq ediləcəyi günü səbrsizliklə gözləyirəm. Mən özüm dəfələrlə Avropanın müxtəlif ölkələrində balabanı səsləndirmişəm, təbliğ etmişəm. Fransada, UNESCO-nun özündə Qazax-Tovuz və Şirvan aşıqları ilə çıxış etmişik. Bütün dünyada təsdiq edilməlidir ki, balaban Azərbaycan xalqının yaşı çox qədim olan milli musiqi alətidir. Bu gün ermənilərin balabanı Yaponiyada "erməni musiqi aləti" kimi təqdim etməsi gülüncdür. Ermənilər çalışırlar ki, hər yerdə balabanı "erməni musiqi aləti" kimi tanıtsınlar. Biz buna qarşı mübarizədə fəal olmalıyıq. Mən bir balaban ifaçısıyam və öz sənətimi yaxşı bilirəm. Balaban haqqında tarixi mənbələrdə olan məlumatlardan xəbərdaram. Bütün mənbələrdə balabanın Azərbaycanın milli musiqi aləti olduğu qeyd edilir. Azərbaycan tərəfi Yaponiyaya hər hansı bir formada çatdırmalıdır ki, "Şur" da bizimdir, balaban da, bunların ermənilərlə heç bir əlaqəsi yoxdur. Ermənilər harada fürsət düşdü, orada bizim musiqimizi öz adlarına təqdim edirlər" - deyə Ş.Fətəliyev vurğuladı.

***İradə SARIYEVA***

**Bir** para bəzi müxalif mövqedən çıxış edən mətbuat orqanları iddia edirdilər ki, guya xarici şirkətlər Azərbaycanı tərk etməyə başlayıb. Xüsusən də ölkənin qeyri-neft sektoruna sərmayə qoymaqda maraqlı deyillər. Ancaq bu ilin 6 ayında açıqlanan statistik rəqəmlər bütün bu deyilənləri alt-üst etdi.

# 6 ayda Azərbaycanda xarici kapitalla minə yaxın şirkət - "xarici kapital qaçır" deyənlər hardadır?



## *Fikrət Yusifov: "Məsələnin ən yaxşı tərəflərindən biri də ondan ibarətdir ki, xarici kapitalın iştirakı ilə yatırımlar ilk növbədə qeyri-neft sektoruna yönəldilir"*

Belə ki, bu il xarici kapitalın iştirakı ilə Azərbaycanda mindən çox şirkət, o cümlədən, 144 birgə müəssisə yaradılıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2018-ci ilin birinci yarısına nisbətən xarici kapitallı şirkətlərin sayı 49 faiz artıb. Eyni zamanda, bu ilin iyul ayının əvvəlində ölkədə 100 faiz xarici kapitallı 9161 şirkət və 2 651 birgə şirkət qeydiyyatdan keçib. Altı ayda 39 xarici şirkət fəaliyyətini dayandırıb.

Görünən odur ki, xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi Azərbaycan dövlətinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Son dövrlər ölkədəki siyasi sabitlik və iqtisadi inkişaf xarici dövlətlərin Azərbaycan iqtisadiyyatına uzunmüddətli sərmayə qoymaq üçün marağını daha da artırıb. Məsələ ondadır ki, indiyə qədər Azərbaycanda investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, əldə edilmiş mənfəətdən maneəsiz istifadə olunması ilə bağlı mühüm qanunlar qəbul edilərək hüquqi baza yaradılıb. Bütün bunların nəticəsidir ki, bu ilin 6 ayında xarici kapitalın iştirakı ilə Azərbaycanda mindən çox şirkət, 144 birgə müəssisə yaradılıb.

O baxımdan yaranan bu cür müsbət dinamikanı ekspertlər necə dəyərləndirirlər?

### *"Aparılan islahatlar real sektorda daha münbit bir atmosfer yaradıb"*

Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, bütün bunlar onu göstərir ki, Azərbaycan iqtisadiyyatına xarici kapitalın marağı artıb: "Nəticələr bunu deməyə tam əsas verir. Məsələ ondadır ki, bu ilin 6 ayının nəticələri pozitivdir. O cümlədən, qeyri-neft sektorunda pozitiv nəticələr əldə olunub. Bunda xarici kapitalın da öz payı var. Reallıq onu göstərir ki, Azərbaycan iqtisadiyyatına kapital axını var. Ölkəyə xaricdən gələn kapitalın həcmi ilbəil artır. Bunun həcmi digər qonşu ölkələrlə müqayisədə qat-qat böyükdür. Məsələnin ən yaxşı tərəflərindən biri də ondan ibarətdir ki, xarici kapitalın iştirakı ilə yatırımlar ilk növbədə qeyri-neft sektoruna yönəldilir. Deməyim odur ki, qeyri-neft sektoruna marağın artması bu sahədə son illər aparılan islahatların nəticəsidir.

Aparılan islahatlar real sektorda daha münbit bir atmosfer yaradıb. Bu da təbii ki, xarici kapitalın iştirakı ilə müəssisələrin açılmasına stimul verir. Xarici sərmayədarlar Azərbaycanın qeyri-neft sektorunda bundan sonra da çoxsaylı layihə həyata keçirib investisiyalar qoymaqda maraqlı olacaqlar".

***Vidadi ORDAHALLI***

**Vergilər Nazirliyi ticarət və iaşə obyektlərində nəzarət-kassa aparatlarından istifadə zamanı kassa çeklərinin təqdim olunması ilə bağlı vergi nəzarəti tədbirlərinə başlayıb. Tədbirlər çərçivəsində ayrı-ayrı ticarət və ictimai iaşə obyektlərində kassa çeklərinin təqdim edilməsi vəziyyəti yoxlanır.**

# Vergilər Nazirliyindən xalqa çağırış - kassa çekini tələb etməyi unutmayın!




Nəzarət tədbirləri zamanı kassa çeki və digər ciddi hesabat blanklarının təqdim edilməməsi halları aşkar edilərsə, vergi orqanları tərəfindən qanunamüvafiq tədbirlər görüləcək. Çek tələb etmək alıcılar üçün vacib məsələdir.

### Çek tələb etməsək nə baş verə bilər?

Alış-veriş gündəlik həyatımızın ayrılmaz hissəsidir. Hər alış-veriş zamanı kassa çeki tələb etmək isə məsələnin hüquqi tərəfdən təminatıdır. Əgər alış-veriş zamanı çek verilməyibsə, bu, qanun pozuntusu və vergidən yayınma deməkdir. Alıcı hər alış-veriş zamanı dövlət büdcəsinə vergilərin ödənilməsində iştirak edir. Belə ki, alış-veriş etdiyimiz yerlər arasında ƏDV ödəyiciləri olan iri supermarketlər və kiçik sahibkarlıq subyektləri var. İstehlakçı alış-veriş zamanı müxtəlif vergiləri (ƏDV, aksiz) ödəyir, həmçinin sahibkarın satışı rəsmiləşdirdiyi zaman gəlirlərini bəyan etməklə vergiləri ödəməsində dolayı şəkildə iştirak edir. Məsələn, vətəndaş əldə etdiyi çekə baxmaqla orada ödənilmiş ƏDV məbləğini görə bilər. Yaxud mağazadan aksizli məhsullar (tütün məmulatı, alkoqollu içki və s.) ala bilər. Alıcı çek tələb etməyəndə ödədiyi vergilərin, həmçinin sahibkarın ödəməli olduğu verginin büdcəyə deyil, ticarət obyektinin sahibində qalmasına yol açır, eyni zamanda, vergilərin büdcədən yayındırılmasına yol vermiş olur. Halbuki, büdcəyə ödənilən vergi xidmət şəklində alıcıya qayıda bilərdi. Vətəndaş çek tələb edən zaman satıcı satışı qeydiyyata almış olur və bu satışdan vergi dövlət büdcəsinə yönəlir. Dövlət büdcəsinə yönələn vergi isə əməkhaqqı, pensiya, təqaüd, səhiyyə və təhsil sisteminə, sosial xidmətlərə və dövlətin digər ehtiyaclarına xərclənir. Alıcılar çekləri tələb etmədikcə büdcəyə daxil olan verginin məbləği azalır. Sahibkarlar qeyri-qanuni gəlir əldə edir, vətəndaş işə əməkhaqqının və ya sosial xidmətlərin azlığından şikayətlənir.

Vətəndaş isə buna özünün yol verdiyinin fərqinə varmır. Nəticədə büdcədən müəyyən vəsait yayındırılır və vətəndaş özü də bilmədən "kölgə iqtisadiyyatı"nın iştirakçısına çevrilir. Alıcılar əksər hallarda məlumatsızlıqdan bu vəziyyətə yol verirlər. Bu səbəbdən bəzi ölkələrdə çek tələb etməyən vətəndaşlara da cərimələr tətbiq olunur. Bütün bunları nəzərə alsaq məlum olur ki, diqqətsizlik ucbatından əldə etmədiyimiz çek gələcəkdə bizə təqdim ediləcək sosial xidmətdən imtina etməyimiz deməkdir. Bu, həm də istehlakçı olaraq hüquqlarımızın pozulmasıdır, çünki malın bu və ya digər səbəbdən dəyişdirilməsi tələb olunduqda, kassa çekinin təqdim edilməsi zəruridir. Bu səbəbdən çek mütləq tələb edilməlidir.

### Çek tələb etsək nə qazanırıq?

Çek tələb etməklə birinci növbədə, vətəndaşlıq borcunu yerinə yetirmiş oluruq. Satıcıya ödənilən vəsaitin vergi şəklində büdcəyə ödənilməsini təmin etmiş oluruq. Çek tələb etmək vergidən yayınmanın qarşısını almaqdır. İqtisadiyyatdan yayındırılmağa cəhd edilən satışın qarşısını almaqla dövriyyənin qanuni vergiyə cəlb edilməsini təmin etmiş oluruq. Çek əldə etməklə vəsaitin sosial xidmətlərə xərclənməsinə və bununla da daha keyfiyyətli xidmətdən faydalanmağa nail oluruq. İstehlakçı kimi hüquqlarımızı müdafiə etmək üçün sənədə sahib oluruq. Çek alıcının hüququnu təsdiq edən sənəddir. Alış-veriş zamanı çek tələb etmək satışı rəsmiləşdirir. İstehlakçı hüquqları baxımından məsələyə diqqət yetirsək, çek əldə etməklə 14 gün müddətində aldığınız məhsulu qaytarmaq və dəyişmək hüququnuzu qazanmış olursunuz. Bu, çek olmadan mümkün deyil. Çek tələb etmək tərəflər arasında aparılan bütün əməliyyatların qeydə alınmasına, "kölgə iqtisadiyyatı"nın qarşısının alınmasına və vergilərin tam həcmdə dövlət büdcəsinə yığılmasına, nəticədə isə dövlətin qüdrəti olmasına və əhalinin rifah səviyyəsinin artmasına zəmanət verir.

### Daha yaxşı xidmət üçün aktiv təşəbbüs

Alış-verişin həyatımızın ayrılmaz hissəsi olduğunu yazının əvvəlində qeyd etmişdik. Hər alış-veriş zamanı dövlət büdcəsinə vəsait ödənir və biz bu vəsaiti sosial rifah halımızın yüksəldilməsi kimi dövlətdən geri alırıq. Cəmiyyət arasında çek tələb etmə vərdişinin formalaşması üçün vətəndaşların da bu sahədə biliklərə sahib olması mütləqdir. Öz hüquqlarını müdafiə edə bilən istehlakçı cəmiyyət üçün faydalı təşəbbüslərə yol açacaq və vətəndaş cəmiyyətinin əhəmiyyətli üzvünə çevriləcək. Çünki bu təşəbbüslər ümumi iqtisadi maraqlara xidmət edir. Vergi dövlətin önəmli maliyyə mənbəyidir. Verginin tam və vaxtında ödənilməsi qədər vergilərin ödənilməsində iştirak etmək və buna nəzarət etmək də önəmlidir. Bu, hər bir vətəndaşın borcudur.

Çünki bu, son nəticədə vətəndaşın özünə faydalıdır. Dövlətin ona daha geniş imkanlar verməsini və keyfiyyətli sosial xidmətlərdən yararlanmaq istəyən vətəndaş öz vəzifələrini və hüquqlarını bilərək buna uyğun hərəkət etməli və cəmiyyətdə iqtisadi proseslərin qanun çərçivəsində həllində maraqlı olmaldır. Bunun üçün təşəbbüsə çek tələb etməklə başlamaq olar...!

# Bir və ikinci qruplarda bircə nəfər də 700 ballı abituriyent olmadı

**Məlum olduğu kimi, iyulun 7-də II və III ixtisas qrupları üzrə abituriyentlər üçün keçirilən qəbul imtahanlarının nəticələri elan edilib. Dövlət İmtahan Mərkəzinin yaydığı məlumatda qeyd olunur ki, sözügedən qruplar üzrə 1 nəfər belə maksimum nəticə göstərə bilməyib.**

Məlumat üçün bildirək ki, ötən il yaz qəbul imtahanlarında I və II ixtisas qrupları üzrə 4, III ixtisas qrupu üzrə 5, IV ixtisas qrupu üzrə 1 abituriyent, ümumilikdə, 10 nəfər 700 ballıq nəticə göstərib.

Builki göstəricilərə görə, qəbul imtahanlarının I mərhələsində (buraxılış imtahanı) 4 nəfər, ixtisas qrupları üzrə imtahanda isə, ümumilikdə, cəmi 1 nəfər ( I ixtisas qrupu üzrə) maksimum bal toplaya bilib. I ixtisas qrupu üzrə 400 bal toplayan abituriyentin qəbul imtahanlarının I mərhələsində (buraxılış imtahanı) göstərdiyi nəticə 265-dir.

Qəbul imtahanlarının I mərhələsində isə (buraxılış imtahanlarında) maksimum bal (300 bal) toplayan 4 nəfərdən heç bir abituriyent II mərhələdə bütün sualları düzgün cavablandıra bilməyib.

Bir sözlə, 2019-cu ilin yaz və yay qəbul imtahanlarında, ümumilikdə, 1 abituriyent belə 700 ballıq nəticə göstərməyib.

Xatırladaq ki, 2019-cu ildən qəbul imtahanları kurikulum sistemi əsasında həyata keçirilir. Bu il buraxılış imtahanında şagirdlər tərəfindən toplanan nəticələr qəbul imtahanlarında topladığı nəticələrin üstünə gələrək cəmlənir və bununla da ümumi nəticə əldə olunması nəzərdə tutulub. Məsələn, buraxılış imtahanında toplanan bal 300-dürsə, o bal qəbul imtahanında olan nəticənin üstünə gəlir və beləliklə, ümumi balla müsabiqə keçirilir.

Ötən illərdən fərqli olaraq, bu il keçirilən qəbul imtahanlarında abituriyentlər arasında bir nəfərin belə 700 bal toplaya bilməməsi maraq doğurur.

Məsələ ilə bağlı fikir bildirən təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, təhsilin keyfiyyət göstəricisi olsaydı, 2007-ci ildən toplanan 700 ballar 12 ildə, ümumiyyətlə, 500-dən yuxarı ballar 27 ildə ölkə universitetlərini bitirmiş minlərlə istedadlı kadrın göstərici meyarı ola bilərdi. "Bax, bu kadrlar həmin şəxslərdir" nümunəsində: "Amma MİQ, DQ, dövlət qulluğu və digər reallıqlar yuxarıdakı forma və məzmunca mürəkkəb olan cümləni gerçəkləşdirmir. Qəbul-seçim imtahanından sonra unudulan mexaniki əzbərləmə materialları tam göstərici deyil, prosesi doğun əks etdirmir. Burada metodiki yanlışlıqlar və yanaşma natamamlıqları çoxdur.

Test imtahanları 1992-ci ildən etibarən keçirilsə də, ilk 700 bal toplayanlar 2007-ci ildə qeydə alınıb. Bunun səbəbi o idi ki, imtahanlar üçün lazımi resurs yox idi, test imtahanı tam şəkildə oturuşmamışdı və hətta ixtisas qrupları daxilində müxtəlif fənlərdən iştirakçılar imtahan verirdi.

Yeni ümumiləşmiş fənn bloku adı altında humanitar ixtisaslara gedənlər təbiət və texniki fənlərdən, təbiət və texniki fənlərə gedənlər humanitar fənlərdən imtahan verirdilər ki, bu sualların cavablandırılmaması onların balına təsir göstərirdi.

2007-ci ildən etibarən ona görə 700 bal toplayan oldu ki, qeyd etdiyim manеələr, ümumi fənn bloku, resurs çatışmazlığı aradan qalxdı. TQDK (indiki DİM) ilk dəfə fənlər üzrə test bankını 2001-ci ildə çap etdi, siniflər üzrə testlər 2003-cü ildən sonra çap olunmağa başlandı və bundan sonra imtahan iştirakçıları sistemli şəkildə qəbul imtahanlarına hazırlaşmağa başladılar.

2018-də 29 nəfər 700 bal toplayıb, amma bu il yox. Bunun 3 səbəbi var. Amma əsas səbəb odur ki, yeni imtahan modeli üçün lazımi resursları hazırlanmayıb. 90-cı illərdə ona görə 700 bal yox idi ki, imtahan iştirakçıları üçün vahid kitab, test yox idi. Hətta orta məktəblərdə dərslik problemi var idi.

İndi də elədir. Yeni imtahan modeli adı altında nəşr olunan fənlər üzrə test banklarının hamısı köhnə dərsliklərindir. Yeni kurikulum dərsliklərinə uyğun test bankı yoxdur. Nümunə üçün yeni test bankında olan minlərlə test görtərərəm ki, hazırda qəbul proqramına daxil olunmuş dərsliklərdə yoxdur. XI siniflər üçün sinif testi çap olunmayıb. Bu il imtahan verən XI sinif şagirdi XI sinif üzrə sinif testlərini, yeni imtahan modelinə uyğun test görmədən qəbul imtahanı verir.

Yoxlama prosesində şablon cavablar yalnız doğru hesab olunur ki, bu da qüsurlu yanaşmadır".

Ekspertin fikrincə, test imtahanında toplanan bal bilik, savad göstəricisi ola bilməz. Test sadəcə olaraq seçim üsuludur. 2019-cu ildə ali məktəblərə qəbul imtahanlarındakı yeniliklərdən biri də buraxılış imtahanların tədris ili bitməmiş, yəni 11-ci sinif proqramı tam mənimsənilməmiş keçirilməsi oldu: "Xatırladım ki, əvvəlki illərdə qəbul imtahanları tədris ili başa çatmamış, may ayında keçirilsə də, buraxılış imtahanları tədris ili başa çatandan sonra, iyun ayında keçirilirdi.

Bu ildən etibarən isə həm buraxılış imtahanı, həm də qəbul imtahanı tədris ili başa çatmamış keçirilir.

Dövlət İmtahan Mərkəzi analoqu olmayan "yeniliyə" imza atmaqla abituriyentlərin, əslində, universitetlərə yalnız repetitor hesabına qəbul olunduğunu təsdiqləmiş oldu. Yeni tədris proqramı tədris ili başa çatmamış ancaq repetitor və hazırlıq kurslarında mümkündür.

Vacib bir məqamı qeyd edim ki, buraxılış imtahanındakı test tapşırıqları arasında şagirdlərin orta məktəbdə hələ keçməDikləri, standartların reallaşmadığı dərslərdən də suallar ola bilər. Əvvəlki illərdə biz bunun şahidi olduq.

Buraxılış imtahanları tədris ili başa çatmadan aprel ayında, qəbul imtahanları may ayının əvvəlində baş tutdu. Onu da qeyd edim ki, keçənilki imtahanlar göstərdi ki, Dövlət İmtahan Mərkəzi bu ehtimalları hələ də keçirilməyən mövzulardan, reallaşmayan standartlardan imtahan iştirakçılarının bilik və bacarıqlarını yoxlayıb. Belə ki, 2018-ci ildə keçirilən qəbul imtahanlarında bütün ixtisas qruplarına daxil olan fənlərdə istifadə olunmuş test tapşırıqlarının azı ikisi imtahana qədər keçirilməyən, tədris proqramında mayın sonu, iyunun əvvəllərində nəzərdə tutulan mövzulardır. Belə olan halda, çox maraqlı bir vəziyyət yaranır.

Bildiyiniz kimi, bu il 2017-2018-ci il üçün keçirilən qəbul imtahanlarında I ixtisas qrupu üzrə 5 abituriyent, II ixtisas qrupu üzrə 2 abituriyent, III ixtisas qrupu üzrə isə 1 abituriyent, IV ixtisas qrupu üzrə isə 2 abituriyent hazırda orta məktəbdə oxumasına və tədris proqramını bitirməməsinə baxmayaraq, bütün mövzulardan təqdim olunmuş test tapşırıqlarına doğru cavab verib. 2018-2019-cu tədris ilində isə 19 abituriyent tədris ili başa çatmamış tədris proqramını mənimsəyərək 700 bal toplamışdı. Əlbəttə, abituriyentlərin yüksək bal toplaması sevindirici haldır. Amma bu onu göstərir ki, qəbul imtahanlarında iştirak edən iddiaçılar imtahanda orta məktəbdə əldə etdikləri biliklərlə yox, məktəbdən kənar, repetitor yanında mənimsədikləri biliklərlə iştirak edirlər. Bu da onu göstərir ki, Azərbaycanda qəbul imtahanları çox çətin bir prosesdir, şagirdlər üçün əlçatan deyil.

Qəbul imtahanlarını tədris ili başa çatmamış təyin edən Dövlət İmtahan Mərkəzi qəbul imtahanlarını orta məktəb proqramına, dövlətin təsdiq etdiyi tədris cədvəlinə uyğun olaraq yox, repetitor proqramına uyğun olaraq həyata keçirir.

**Burada bir ziddiyyətli məqam da ortaya çıxır. Şagird aprel ayında keçirilən buraxılış imtahanında və may ayında keçirilən qəbul imtahanında yüksək nəticə göstərsə və müsabiqə şərtlərini ödəsə, o orta məktəbə dərsə getməyə bilər. Çünki o, potensial tələbədir. Ancaq Azərbaycanda bir adam eyni zamanda həm şagird, həm də tələbə ola bilər. Qəbul və buraxılış imtahanlarının tədris ili başa çatmamış keçirilməsi orta məktəblərin 11-ci siniflərində davamiyyətə mənfi təsir göstərə bilər".**

***Kamran Əsədov:** "Yeni imtahan modeli adı altında nəşr olunan fənlər üzrə test banklarının hamısı köhnə dərsliklərindir, yeni kurikulum dərsliklərinə uyğun test bankı yoxdur"*



*"2019-cu ildə ali məktəblərə qəbul imtahanlarındakı yeniliklərdən biri də buraxılış imtahanlarının tədris ili bitməmiş, yəni 11-ci sinif proqramı tam mənimsənilməmiş keçirilməsi oldu"*

*Günel CƏLİLOVA*

# Bakıda Dünya İslam Kulinariya Konqresi...

**Şərqlə Qərbin qovuşduğu Azərbaycan müxtəlif profilli tədbirlərin keçirdiyi məkandır. Bəşəriyyətin bir sıra taleyüklü problemləri Bakının evsahibliyi ilə həll olunur desək, heç bir mübaliğəyə yol vermərik. Son illər beynəlxalq kulinariya festivalları və konqreslərində yaxından iştirak edən ölkəmiz İslam kulinariya mədəniyyətinə də töhfələr verir.**



*"Dünyada ilk dəfə olaraq "Hilal Star" mükafatı restoranlara və aşpazlara Azərbaycandan verilməyə başlayacaq"*

## *Tahir Əmiraslanov: "Bu konqresin gələcək perspektivləri çox böyükdür və o özündə İslam dünyasının mətbəx mədəniyyətini birləşdirir"*

Bakıda "Dreamland Golf Club Baku" kompleksinin ərazisində Dünya İslam Kulinariya Konqresi baş tutub.

Müsahibimiz Azərbaycan Milli Kulinariya Assosiasiyasın rəhbəri, dünyaşöhrətli mütəxəssis Tahir Əmiraslanovla belə bir konqresin Azərbaycanda keçirilməsinin əhəmiyyətindən danışdıq.

**- Tahir müəllim, bir sıra beynəlxalq tədbirlərə evsahibliyi edən Bakı hər zaman İslam mədəniyyətinin təbliğində xüsusi fərqlənib. İndi də paytaxtımızda Dünya İslam Kulinariya Konqresi keçirilib. Bu konqresin ölkəmizdə keçirilməsinin əhəmiyyəti nədir?**

- İlk olaraq deyim ki, ölkə başçısı cənab İlham Əliyevin və I vitse-prezident Mehriban Əliyevanın Azərbaycan mədəniyyətinin vacib bir hissəsi olan bu sahənin inkişafında müstəsna xidmətləri var. Azərbaycan hər zaman bu və digər beynəlxalq tədbirin keçirilməsində yaxından iştirak edib. Belə bir tədbirin Bakıda keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu konqresin gələcək perspektivləri çox böyükdür və o özündə İslam dünyasının mətbəx mədəniyyətini birləşdirir. Bu konqres Azərbaycan Dövlət Turizm Agentliyi Milli Kulinariya Mərkəzi və Azərbaycan Milli Kulinariya Assosiasiyasının (AMKA) birgə təşkilatçılığı ilə baş tutub. Bu konqresin keçirilməsində əsas məqsədlərdən biri Dünya İslam Kulinariya Birliyinin (WICS) ofisinin daimi olaraq Azərbaycana köçürülməsi idi. Artıq Dünya İslam Kulinariya Birliyinin ofisi Azərbaycanda fəaliyyət göstərəcək. Bu tədbirdə 25 ölkə iştirak edirdi. Konqres çərçivəsində halal qida sərgisi, aşpaz və qənnadçıların İslam mətbəxi yarışları, WİCS kateqoriyalı münsif kursları, Dünya İslam Kulinariya Təşkilatının II konfransı da keçirilib. Konfrans zamanı WİCS-in daxili məsələləri, proqramı, yeni layihələri müzakirə edilib. Konqres başa çatıb və biz konqresdən sonra da görüləcək işlərlə məşğul oluruq. Bu konqresin müsəlman aşpazların, mütəxəssislərin dünyada tanıdılması üçün də əhəmiyyəti danılmazdır.

**- Deyəsən, konqres çərçivəsində yeni mükafat da təsis edilib?**

- Dünyada ilk dəfə olaraq "Hilal Star" mükafatı restoranlara və aşpazlara Azərbaycandan verilməyə başlayacaq. Bu da bir yenilikdir. Buna görə də "Hilal Star" tarixi Azərbaycandan başlayır.

**- Kulinariya çempionatında yerli müəssisələr də iştirak etdilərmi?**

- Bəli, bütün bunlarla yanaşı, tədbir çərçivəsində II Beynəlxalq İslam Kulinariya Çempionatı da keçirilib. Birinci çempionat 2009-cu ildə Bakıda baş tutmuşdu. Bu, peşəkar kulinariya müsabiqəsidir. Yarışlar komanda və fərdi şəkildə olacaq, həmçinin, gənc iştirakçılara da sinif ayrılıb. Yarışda şadlıq sarayları, otellər, ketrinq şirkətləri, aviaşirkətlər iştirak ediblər. Müsabiqədə şadlıq sarayları "bəy-gəlin" və "qonaq süfrəsi", otellər "Azərbaycan səhər yeməyi", ketrinq şirkətləri "Azərbaycan mətbəxi furşeti", aviaşirkətlər "Bort yeməyi", şirniyyat müəssisələrimiz şirniyyat siniflərində yarışdılar. Bununla bərabər, müxtəlif mətbəx incəsənəti sinifləri üzrə yarışlar da olacaq. Münsiflər heyəti beynəlxalq səviyyəli hakimlik səviyyəsinə malik kulinariya hakimlərindən ibarətdir. Eyni zamanda, tədbir zamanı halal sərgi də baş tutub.

Halal sərgidə halal məhsul istehsal edən şirkətlər və məhsullar yer aldı və onlar öz məhsullarını 16-18 iyul tarixlərində sərgidə göstərə bildilər. Tədbirin əsas dəstəkçisi "Azersun Holding" MMC-nin "Super Sun" yağı və "Azerçay" markaları olub.

***İradə SARIYEVA***

# Bakı küçələrində motosikletli təcili tibbi yardım həkimləri...

**Şəhərimizin istənilən yerində təcili tibbi yardım maşınları ilə rastlaşırıq. Bəzən saatlarla davam edən tıxaclar təcili tibbi yardım maşınlarının vaxtında hadisə yerinə çatmasına əngəl törədir. Nəzərə alsaq ki, küçələrimizin də böyük əksəriyyəti həddən artıq dardır, bu hal da təcili yardım maşınlarının hərəkətinə müəyyən qədər manеə törədir.**



## *Rafis Bağırov: "Azərbaycanda təcili tibbi yardım sisteminə motosikletlərin cəlb edilməsi müəyyən sahələrdə effekt verə bilər"*

Çox zaman təcili tibbi yardım sürücüləri şikayət edirlər ki, tıxaclara görə vaxtında xəstə yanına yetişməkdə çətinlik çəkirlər.

Bu gün dünyanın bir sıra ölkələrində təcili tibbi yardım maşınları ilə yanaşı, təcili tibbi yardım motosikletlərindən də geniş istifadə olunur. Xüsusən də tıxacı bol olan iri şəhərlərdə xəstələrin dadına daha operativ şəkildə tibbi yardım motosikletləri çatırlar.

Bakıda da bu təcrübədən istifadə edilməsi günün zəruri məsələlərindən birinə çevrilib. Ekspertlər qeyd edirlər ki, Bakıda bu cür təcili tibbi yardım xidmətinə ciddi ehtiyac var. Təcili tibbi yardım sahəsində çalışanların bildirdiyinə görə, bəzən ölkədə keçirilən beynəlxalq yarışlarla əlaqədar olaraq ayrı-ayrı küçələrdə avtomobillərin hərəkəti məhdudlaşdırılır, bu halda təcili tibbi yardım maşınları da həmin ərazilərə daxil ola bilmirlər. Onlar hesab edirlər ki, belə vəziyyətlərdə təcili tibbi yardım motosikletlərinə ciddi ehtiyac yaranır. Çünki motosikletin keçməsi üçün kiçik bir yol lazımdır və o heç bir manеəsiz xəstənin köməyinə yetir.

Tanınmış həkim-terapevt Rafis Bağırov bizimlə söhbətində bildirdi ki, bu cür təcili tibbi yardım vasitəsinə ehtiyac var. Bununla belə, ekspertin sözlərinə görə, motosikletdən ancaq yüngül çağırışlar zamanı istifadə etmək olar, ağır xəstələrin çağırışına bütün vasitələrlə təchiz olunmuş təcili tibbi yardım maşınları getməlidirlər.

*"Təcili tibbi yardım motosikletləri o zaman daha çox faydalı olur ki..."*

"Azərbaycanda təcili tibbi yardım sisteminə motosikletlərin cəlb edilməsi müəyyən sahələrdə effekt verə bilər. Ancaq, bütövlükdə, bütün çağırışlara motosikletli tibb işçilərinin getməsi mümkün deyil. Çünki motosikletin üstünə bütün lazımi avadanlıqları yükləmək olmur. Buna görə də motosiklet çox vaxt bu sahəyə cəlb edilə bilmir. Bakıda təcili tibbi yardım sistemində motosikletlərdən istifadə etmək olar, bu təcrübənin tətbiq edilməsi mümkündür. Onlardan daha çox yüngül çağırışlarda istifadə etmək məqsədəuyğundur. Bəzən görürsən ki, xəstə insult keçirib və ona oksigen verilməlidir, bu halda xəstənin çağırışına təcili tibbi yardım maşını ilə gedilməlidir. Bəzi cihazları təcili yardım çantasına yerləşdirmək olmur. Təcili tibbi yardım motosikletləri o zaman daha çox faydalı olur ki, təcili tibbi yardım maşınlarının keçə bilmədiyi yerdən rahat keçib xəstəyə ilkin tibbi yardım göstərə bilirlər. Həddindən artıq ağır olmayan xəstələrə də ilkin yardım göstərmək üçün həkimlər təcili tibbi yardım motosikletlərindən istifadə edə bilərlər.

**Avropa ölkələrində bizdəki kimi böyük tıxaclar olmur, sadəcə, onlar yeniliklər etməyə çalışırlar ki, hadisə baş verərkən oraya daha sürətlə çatsınlar. Bu səbəbdən də motosikletlərdən istifadə edirlər" - deyə həkim vurğuladı.**

***İradə SARIYEVA***

# Bakıda bir sıra tibb mərkəzləri hansı reklam pozuntularına görə cəzalandırıldı...

**Paytaxtda fəaliyyət göstərən tibb mərkəzlərinin bəzisi reklam qaydalarına düzgün riayət etmədiyi üçün cərimələnib. "Yaşam" MMC reklam haqqında qanunvericiliyin pozulmasına görə 5 min manat inzibati qaydada cərimə edilib.**



Şirkət İnzibati Xətalar Məcəlləsinin 428.7.1. (müvafiq icazə, texniki şərtlər pasportu və icazə müqaviləsi olmadan, həmçinin, onun tələbləri pozulmaqla açıq məkanda reklam yerləşdirilməsinə görə) maddəsi ilə təqsirli bilinib. Bu inzibati xətaya görə hüquqi şəxslər beş min manatdan on min manatadək məbləğdə cərimə edilirlər.

Məlumat üçün bildirək ki, "Yaşam" tibb mərkəzi 2006-ci ildə yaradılıb və ümumi profilli klinikadır.

Tibb mərkəzlərinin reklam qanunvericiliyini pozduğuna görə cərimələndiyini reklam sahəsi ilə məşğul olan mütəxəssislər də təsdiqləyirlər.

## *Oqtay Əliyev: "Özəl tibb müəssisələrinin reklamı kortəbii şəkildə aparıldığı üçün onlar cərimə olunurlar"*

Reklamçılar İttifaqı idarə heyətinin üzvu, reklam sahəsi üzrə mütəxəssis Oqtay Əliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, klinikaların reklamı əsasən media vasitəsilə yayılır. Küçələrdə klinikaların reklam olunmasına rast gəlinmir: "Klinikaların reklamı KİV-də həm video formasında, həm də yazılı formada yayımlanır. Özəl klinikaların bəzisinin reklamının mediada yayılmasının məqsədi daha çox xəstə qəbul etməkdir. İstər televiziyalarda, istərsə də çap mediasında tibb mərkəzlərinin reklam olunması onların səviyyəsini göstərmir. Reklamı görən tamaşaçı və ya oxucu onların keyfiyyətini ayırd edə bilmir. Belə olan halda rəqabət inkişaf etmir".

*"Bu gün səviyyəsi olmayan, gördüyü işin keyfiyyəti aşağı olan özəl tibb müəssisələri daha çox xəstə cəlb etmək üçün reklama üstünlük verirlər"*

Həmsöhbətimiz onu da bildirdi ki, "Reklam haqqında" Qanuna bəzi əlavə və dəyişikliklərin olunması üçün Milli Məclisdə müzakirəyə çıxarıldı. Qəbul edilən qərar sayəsində tibblə bağlı yayılan reklamlar icra hakimiyyəti orqanlarına həvalə olundu: "Reklam verən müəssisənin gördüyü işin keyfiyyətini icra orqanları müəyyən edəcək. Danılmaz faktdır ki, bu gün səviyyəsi olmayan, gördüyü işin keyfiyyəti aşağı olan özəl tibb müəssisələri daha çox xəstə cəlb etmək üçün reklama üstünlük verirlər. Ancaq səviyyəli tibb müəssisələri reklama ehtiyac duymadıqları üçün, onlar piara önəm vermirlər".

**Həmsöhbətimiz onu da vurğuladı ki, özəl tibb müəssisələrinin reklamı kortəbii şəkildə aparıldığı üçün onlar cərimə olunurlar. Bu sahəni inkişaf etdirmək üçün reklam sahəsində sağlam rəqabəti inkişaf etdirmək lazımdır.**

*Günel CƏLİLOVA*

# Şəhid ailəsi ziyarət edildi - Mərdəkanda...

**Məcburi köçkünlərin məskunlaşdığı Mərdəkan qəsəbəsindəki "Abşeron" sanatoriyasının sonuncu mərtəbəsinə qalxırıq... Qeyd edək ki, şəhid ailəsini ziyarət "Azərbaycanın Bütövlüyü Uğrunda İctimai Birliyin "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının gənclər arasında təbliği" layihəsi çərçivəsində baş tutdu...**




Enli, lakin köhnə taxtalarla döşənmiş pilləkənlər bizi getdikcə daralan dəhlizə doğru aparır. Mənzil başına yetişəndə qapını daxilən kədərli, çöhrəsi isə təəccüblə dolu bir qadın açır. Məqsədimizi, təşrif buyurmaq səbəbini təkrar-təkrar soruşduqdan sonra bir qədər duruxur, nəhayət uzun illər ürəyində gizlətdiyi ağrı-acıları dilə gətirir: "27 ildir ki, burada məskunlaşmışıq. İlk dəfədir ki, siz qapımızı döyürsünüz. Şəhid ailəsi, məcburi köçkün olmağımıza baxmayaraq heç kim bizimlə maraqlanmayıb". Haqqında söhbət açdığımız 1992-ci ildə Azərbaycanın Milli Qəhrəmanı, polkovnik-leytenant Şirin Mirzəyev tərəfindən yaradılmış kəşfiyyat dəstəsinin (xüsusi təyinatlı hücum dəstəsinin) komandiri-leytenant Yavər Babayevin həyat yoldaşı Mülayim Babayevadır. Şəhidin həyat yoldaşından öyrəndik ki, Yavər Babayev 1959-cu ilin iyul ayının isti günlərindən birində Ağdam rayonu Tərneft kəndində, zəhmətkeş bir ailədə anadan olub. Yaşıdları kimi məktəbə gedib, oranı bitirdikdən sonra sovet ordusuna hərbi xidmətə yola düşüb. Hərbi xidməti başa vurduqdan sonra doğma kəndinə dönüb. Əvvəl oxuduğu Gəncə Politexnik Texnikumunda (indiki Gəncə Texniki Kollecində) təhsilini davam etdirib. Məzun olduqdan sonra isə savxozda dinc əməklə məşğul olub. 1982-ci ildə el-obasının ləyaqətli bir qızı ilə ailə qurub, övlad sahibi olub. 1992-ci ildə Tərneft kəndinin gəncləri erməni təcavüzkarlarına qarşı səfərbər olub birləşir, xalqının, vətəninin dar günündə silaha sarılırlar. Kənddə yaradılmış Ağdam özünü müdafiə batalyonunun rota komandiri isə vətənpərvər və cəsur olduğu üçün bütün həmyerlilərinin hörmətini qazanmış Yavər Babayev seçilir.

Göz yaşları içərisində boğulan Mülayim Babayeva söhbəti davam etdirir: "Yavərin yadigar 2 oğul övladı var. O, döyüşə gedəndə uşaqlar körpəydi. Deyirlər, övlad dünyanın ən gözəl nemətidi. Amma onda elə bir vətən sevgisi, elə bir torpaq təəssübkeşliyi vardı ki, uşaqlar heç gözünə də görünmədi. Onun şəhid olması ailəmizə böyük bir zərbə oldu. Az keçmədi ki, ikinci bir böyük zərbə ilə üz-üzə qaldıq. Torpaqlarımız, yurd-yuvamız işğal olundu. Nə edəcəyimi, hara gedəcəyimi də bilmirdim.Nə yaxşı ki, həyatımızda doğmalarımız var, onların sayəsində ayaqda qalmağı bacarıq. Bacım-qardaşım, atam, həmcinin Yavərin doğmaları bir problem olanda başımızın üstünü kəsdirirdilər. Uzun illərdi, didərginlik həyatının əzab-əziyyətlərini Bakı şəhəri, Mərdəkan qəsəbəsində yerləşən "Abşeron" sanatoriyasının 6-cı korpusunun ucuq-sökük binasında çəkirik. Heç bir normal şəraiti olmayan bu korpusda necə deyərlər, kirpiyimlə od götürərək, balalarımı boya-başa çatdırdım, çalışdım tərbiyəli, savadlı, atalarının adına layiq övlad olsunlar. Şükür ki, buna nail oldum. Saleh atası kimi hərbi sahəni seçdi, kapitandır. Mübariz isə Daxili İşlər Nazirliyinin əməkdaşıdır. Hər bir Azərbaycan vətəndaşı kimi bizim ailəmizin də ən böyük arzusu işğal altındakı torpaqlarımızın azad edilməsi, o torpaqlarda uyuyan şəhidlərimizin məzarının ziyarət olunmasıdır".

Mülayim xanım deyir ki, dövlətimiz sağ olsun ki, şəhid ailələrinə imtiyazlar verib.

Şəhid Y.Babayevlə çiyin-çiyinə vuruşmuş Qarabağ qazisi Rafiq Kərimov həm də onun qaynıdır. O günləri kədərlə xatırlayan keçmiş döyüşçü bildirdi ki, Yavəri döyüşçülərin gözündə ucaldan hücum vaxtı əsgərlərdən öndə durması, döyüşürkən özünü tamamilə unutmasıdır:" Sırxavənd kəndi işğal olunduqdan sonra erməni ordusu Əliağalı kəndinə girmişdi. Amma biz onları geri oturtmaqla Yeni Qaralar və Sırxavənd kəndləri arasında mudafiə mövqeyini bərpa etdik. Şirin Mirzəyevin məqsədi Yavər Babayevin bölüyünü və bir tankı ekipajı ilə nəzərdə tutulmuş mövqeyə yerləşdirərək, möhkəmlətmək idi. Sırxavənddə şəhid olmuş, itkin düşmüş və yaralanmış döyüşçülərimizin olması bizi çox sarsıtmışdı. Buna baxmayaraq bizə ən vacib olan müdafiə mövqeyini gücləndirmək idi. Kəşfiyyatdan yenicə gəlmiş Yavər zabitlər üçün otaqda uzanmışdı. Çox yorğun və üzgün idi. Sanki şəhid olacağını anlamışdı. İkimiz idik otaqda... Dedi ki, komandir deyir bölüyü yığ, gəl Qaralara. Amma getməyə həvəsim yoxdu nəsə. Dedim ki, sən dincəl. Bölüyü mən aparım. (Mən onun müavini idim). Sözlərimi bitirən kimi o, cəld çarpayıdan sıçrayaraq ayağa qalxıb, dedi: "Komandirin əmrini yerə sala bilmərəm!"

Həmin gün Ş.Mirzəyev 18 nəfər olmaqla yenidən Sırxavənd kəndinə kəşfiyyat qrupu göndərdi. Məqsəd yaralı və ya şəhid olmuş döyüşçüləri ordan götürmək idi. Biz müəyyən etdiyimiz mövqeyə baxış keçirmək məqsədilə Daxili Qoşunların durduğu mövqedən keçərək bir az da qabağa getdik. Maşınlardan düşdük, Mirzəyev, Qahir Həsənov, Yavər Babayev və "Arkadaş" ləqəbli Fəxrəddin mövqeyə yenidən baxaraq məsləhətləşmələr aparırdılar.Yekunlaşdırıb maşınlara minib qayıtmaq istəyirdik. Ş.Mirzəyevin UAZ-ında sürücü ilə birlikdə 6-nəfər varıydı. Mən iki dəfə cəhd elədim ki, onların maşınına minim, yerləşə bilmədim. Başqa maşına əyləşdik. Komandirgillə bizim maşının ara məsafəsi 4-5 metr olardı. Orada kiçik bir yoxuş var idi ki, qalxan kimi yol sola dönür və həmin döngəyə də əsgərlərin durduğu səngər birləşirdi. Bunlar döngəyə girən kimi partlayış oldu. Elə bildim Fərrux dağından atırlar. Tez ora qaçdım və gözlərimə inanmadım. Qabaq sağ qapı tərəfdən Mirzəyev əlində rabitə dəstəyi yerdə uzanılı halda idi. Silkələdim, "komandir, komandir" qışqırdım. Komandir bircə kəlmə - "Nə olub?" - dedi. Komandirin dilindən son dəfə eşitdiyim o kəlmələr oldu. Sürücü Mubariz sinəsilə sükana yapışmış vəziyyətdəydi və maşının siqnalı çalırdı. Fəxrəddin qışqırdı ki, tez komandiri, Mubarizi (sürücü) bir də Arazı maşına mindirək. Biz bunu bir anda etdik. Mubarizi maşına güclə mindirdik. Qahir Həsənovun ayağının biri qopmuşdu, son nəfəsiydi. Qaranlıq düşmək üzrəydi. Yavəri isə tapa bilmirdim. Bir az gəzdikdən sonra Yavərin meyidin 12-13 metr aralıda arxası üstə otdan görünməyən daş komasının üstündən tapdım. Sonda sanitar UAZ gəldi. Bu üç igidi götürüb Sarıcalı hospitalına gətirirdik. Yolda mənim qardaşımla Yavərin qardaşı qarşımza çıxdı. Ona qədər sanitarın sürücüsünə və həkimə qışqırmaqdan başqa heç nə edə bilmirdim. Lakin bunları görəndə bir kəlmə qışqırıb ağladım ki, Yavərgil yoxdu".

Mənzillə təmin olunmaq məsələsinə gəlincə, Mülayim Babayeva bildirdi ki, Abşeron sanatoriyasında məskunlaşan qaçqınların yarısını köçürüblər: "Bizə isə hələlik köməyimiz haqqında dəqiq bir söz deyən yoxdur. Xəzər Rayon İcra Hakimiyyətindən bildiriblər ki, bizi də köçürəcəkər, lakin neçə il keçməsinə baxmayaraq sanatoriyada yaşayırıq. İndiyə qədər mən problemlərim barədə heç kimə müraciət etməmişəm. 29 il ərzində birinci dəfə sizsiniz ki qapımı döyürsünüz. Şəhid yoldaşımın adını nəvəmə qoymuşam. Qaçqın və çəhid ailələrinə evlərin verilmə mərasimini hər dəfə televiziyada göstərəndə nəvəm soruşur ki, mənim də babam şəhid olub, bəs niyə bizə ev vermirlər? Hazırda 9 nəfər ailə üzvü ilə bir otaqda yaşayırıq".

***Alim***

№ 128 (4026) ■ Qiymәti: 40 qәpik

BAKI XӘBӘR

23 İYUL 2019-cu il

www.baki-xeber.com

## "Nar" Milli Mәtbuat Günündә media nümayәndәlәrini intellektual yarışda bir araya topladı

**Ölkәnin әn gәnc mobil operatoru "Nar" 22 iyul - Milli Mәtbuat Gününü media nümayәndәlәri ilә birgә qeyd edib. Mobil operator 35 media orqanını tәmsil edәn 80-ә qәdәr media nümayәndәsini artıq әnәnә halını alan intellektual yarışmada bir araya toplayıb.**

Bilik yarışmasında 15 komanda iştirak edib. İntellekt yarışında artıq ikinci ildir qalibiyyәti әldәn buraxmayan "Komanda" komandası 1-ci yeri, "Report" İA-nı tәmsil edәn komanda 2-ci, "Azxәbәr" komandası isә 3-cü yerlәri tutublar. Qalib komandalara "Nar" tәrәfindәn xüsusi hәdiyyәlәr tәqdim edilib. Qeyd edәk ki, yarış iştirakçılarına 7 tur boyunca ümumi biliklәrlә yanaşı, milli vә dünya mәdәniyyәtinә, tarixә, texnologiyaya aid müxtәlif çәtinlik dәrәcәlәrindә suallar verilib.

"Bu gün Zәrdabi davamçıları olaraq sizlәri intellektual yarışda bir arada görmәkdәn böyük qürur hissi duyuram. İctimaiyyәtin mәlumatlandırılmasına, maariflәndirmәyә, düzgün dәyәrlәrin tәbliğinә yönәlik әvәzsiz әmәyiniz üçün "Nar" adından bütün media nümayәndәlәrinә tәşәkkür edir, mәsuliyyәtli vә şәrәfli peşә yolunuzda uğurlar dilәyirәm", - deyә "Azerfon" MMC-nin İctimaiyyәtlә Әlaqәlәr Departamentinin rәhbәri Әziz Axundov Milli Mәtbuat Günü münasibәtilә keçirilәn tәdbirdә bildirib.

Qeyd edәk ki, 22 iyul Azәrbaycan Respublikası Milli Mәtbuat vә Jurnalistika Günü kimi qeyd olunur. Bu gün milli mәtbuat tarixinin başlanğıcı hesab olunan Hәsәn bәy Zәrdabinin 1875-ci ildә tәsis etdiyi "Әkinçi" qәzetinin ilk sayının nәşr edildiyi gündür.

"Nar" hәr zaman elmә, tәhsilә, biliyә olan marağı artırmağa sәy göstәrir vә maariflәnmәni tәşviq etmәk mәqsәdilә müxtәlif sosial layihәlәr hәyata keçirir, eyni zamanda, intellektual yarışların әsas dәstәkçisi rolunda çıxış edir. Layihәlәr haqqında daha әtraflı mәlumat üçün aşağıdakı linkә daxil olun: https://bit.ly/2Ya4VQR

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib. Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 97,5 %-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir vә 7800-dәn artıq baza stansiyası ilә 2,3 milyondan çox abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir.

## Elan

Etibar Dadaşbәyli Mәmmәd oğluna aid, Abşeron rayonu, Xırdalan şәhәri, AAAF Park B kompleksi, bina 4, mәnzil 8-in sәnәdlәri itdiyi üçün etibarsız sayılır.

Eyvazov Zaur Alim oğlunun adına mәxsus, Abşeron rayonu, Mehdiabad qәsәbәsindә yerlәşәn torpaq sahәsinә verilmiş çıxarış (MH №0028396), alqı-satqı müqavilәsi (AN-I №0177125), torpaq sahәsinin planı vә ölçüsü (№AA 015122) itdiyi üçün etibarsız sayılır.

Cәbrayılova Sevda Әmirxan qızının adına, Bakı şәhәri, Yasamal rayonu, Şәhriyar küçәsi, ev 5, mәnzil 84 ünvanına verilmiş çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.

Haşımova Mәtanәt Söhbәt qızının adına, Bakı şәhәri, Әzizbәyov rayonu, Binә qәsәbәsi, F.Aynulov (Basin) küçәsindә yerlәşәn qeyri-yaşayış sahәsinә (61 saylı mağaza) verilmiş şәhadәtnamә itdiyi üçün etibarsız sayılır.

Oğüz rayonu, Kәrimli kәnd sakini Rüstәmov Tahir Әhmәd oğlunun vә ailә üzvlәrinin adına verilmiş JN: 730 saylı torpağa mülkiyyәt hüququna dair dövlәt aktı itdiyi üçün etibarsız sayılır.

Şәki rayonu, Aşağı Daşağıl kәnd sakini Cәfәrov Vәzir Cabbar oğlunun vә ailә üzvlәrinin adına verilmiş JN: 0001 saylı torpağa mülkiyyәt hüququna dair dövlәt aktı itdiyi üçün etibarsız sayılır.

Şәki rayonu, Şorsu kәnd İcra Nümayәndәliyinә mәxsus möhür itdiyi üçün etibarsız sayılır.




## "Azercell"dәn gәnc İT mütәxәssislәrinә dәstәk

*"AZCLOUD Hackathon 2019 müsabiqәsindә qeydiyyatın bitmәsinә sayılı günlәr qaldı*

**Nәqliyyat, Rabitә vә Yüksәk Texnologiyalar Nazirliyinin nәzdindә fәaliyyәt göstәrәn "AzInTelecom" MMC-nin tәşkilatçılığı, "Azercell Telekom" MMC, "R.I.S.K Company", "TrendMicro" vә "Bestcomp Group" şirkәtlәrinin sponsorluğu ilә biznesin idarә olunması, proseslәrin optimallaşdırılması vә rәqәmsallaşdırılması mövzusunda tәşkil olunan "AZCLOUD Hackathon 2019? müsabiqәsinin başlamasına artıq sayılı günlәr qalıb.**

Müsabiqәnin әsas mәqsәdi İT sahәsinә marağı olan kreativ, biznesyönümlü vә analitik düşüncәli gәnclәrә qabaqcıl İT şirkәtlәri ilә әlaqәlәr qurmaq vә ideyalarını reallaşdırmaq üçün imkan yaratmaqdır.

Bu il "AZCLOUD Hackathon 2019? Avropanın әn böyük idman arenalarından biri olan Bakı Olimpiya Stadionunda baş tutacaq. Qeyd edәk ki, müsabiqә 3 mәrhәlәdәn ibarәt olacaq. Komandalar qeydiyyatdan keçdikdәn sonra xüsusi hazırlanmış kiçik tapşırığı yerinә yetirmәlidirlәr. Bu mәrhәlәni keçәn komandalar yarışmaya qatılmağa dәvәt edilәcәklәr. İnnovativ xidmәt vә layihәlәrin rellaşdırılması ideyasını daşıyan "AZCLOUD Hackathon 2019" müsabiqәsindә iştirakçılar tәxminәn 48-72 saatlıq müddәt әrzindә verilәn texniki tapşırıq üzrә yeni hәlli müәyyәn edib, münsiflәr heyәtinә tәqdim etmәlidirlәr. Müsabiqә üzrә qalib komanda isә 10 000 AZN mәblәğindә pul mükafatı qazanacaq.

Xatırladaq ki, yarışmaya qatılmaq istәyәn komandalar artıq iyul ayının 1-dәn başlayaraq müsabiqәnin rәsmi sәhifәsindә ((www.h.azcloud.az/reg) qeydiyyatdan keçirlәr. Müraciәtlәrin son qәbul tarixi iyul ayının 31-dir.

Layihәyә dәstәk olmaq vә әn son mәlumatları әldә etmәk üçün sizә uyğun olan sosial şәbәkәlәri izlәyib, yerlәşdirilәn mәlumatları paylaşa bilәrsiniz:

Vebsәhifә: https://h.azcloud.az/

Facebook: https://www.facebook.com/h.azcloud/

Facebook event: https://www.facebook.com/events/321974052068942/

YouTube: https://www.youtube.com/watch?v=3G5dFRAMBbM

Instagram: https://www.instagram.com/h.azcloud/

Telegram: https://t.me/h_Azcloud

"Hackathon" proqramçıların birlәşәrәk müxtәlif problemlәri hәll etdiklәri, layihәlәr hazırladıqları vә yarışdıqları tәdbirlәr silsilәsidir. Qeyd edәk ki, "Azercell Telekom" MMC daim gәnclәrin potensiallarının üzә çıxarılması, onların tәqdim etdiyi innovativ hәllәrin reallaşdırılması mәqsәdilә tәşkil edilәn layihәlәrin hәyata keçmәsinә dәstәk olur.

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.





**Qoç** - Әdalәt vә haqların tәminatı ilә bağlı problemlәr ön plana keçәcәk. İddialarınızla bağlı mәqamları hәll edin. Qohumlar, dostlar arasında mübahisәlәr olacaq. Yaxın әtrafınızdakı insanlarla münasibәtlәri korlamayın.



**Buğa** - Böyük hәcmli işlәrә hazır olun. Günün ilk yarısından etibarәn, çox yәqin ki, bir mәsәlәnin hәlli ilә mәşğul olmaq gәrәkdir. İkinci dәrәcәli işlәri tәxirә salın. Yollarda xüsusilә diqqәtli olun.



**Әkizlәr** - Günün ilk yarısında hәr şey yaxşıdır. Narahatlıq vә nigaranlıq üçün heç bir sәbәb yoxdur. Nәzәrdә tutduğunuz layihәni reallaşdırmaq gözlәdiyinizdәn dә asandır. Dostlar sizә yardım edәcәklәr.



**Xәrçәng** - Mürәkkәb, qarışıq gündür. İntellektual yük fiziki işlәrlә müşayiәt olunacaq. Ciddi emosional sarsıntı istisna deyil. Diskomfort vәziyyәtdә ruhdan düşmәyin. Günün ikinci yarısında maliyyә vәsaitinizin qәdrini bilin.



**Şir** - Gnün ilk yarısında çәtinliklәr az olmayacaq. Qarşınıza qoyduğunuz mәqsәddәn imtina etmәyin. Hәdәfә sürәtlә çatmağı ağlınızdan da keçirmәyin. Qәtiyyәtli vә iradәli olun, әzmkar davranın.



**Qız** - Yxın gәlәcәkdәki perspektik işlәrin bünövrәsini bu gün qoymaq gәrәkdir. Keçdiyiniz yola nәzәr salın, sәhvlәrin tәkrarlanmaması üçün zәruri addımlar atın. Әnәnәvi mәşğuliyyәti yenilәmәk, fәrqli sahәlәrdә sınaq keçirmәk olar.



**Tәrәzi** - Rsurslarınızı olduğundan artıq qiymәtlәndirmәyin. Can atdığınız mәqsәdә maksimal sürәtlә irәlilәmәk üçün gәrәkli variantlardan praqmatikcәsinә yararlanın. Әsas diqqәti aktual işlәrin görülmәsinә yönәldin.



**Әqrәb** - Yxşı, rәvan, asudә gündür. İşdә hәmkarlar vә rәhbәrliklә fikir ayrılıqları ola bilәr. Cari işlәrin, rutin proseslәrin ciddi müdaxilәyә ehtiyacı yoxdur. Әmәyiniz yetәrincә dәyәrlәndirilmәyәcәk.



**Oxatan** - Sәhәr saatlarından etibatәn tәrәfdaşınızla problemlәr yaratmayın. Hәmkarlarla, şәriklәrlә rәvan, normal münasibәtlәr qurun. Mübahisәlәri vә fikir ayrılıqlarını qarşılıqlı anlaşma yolu ilә hәll etmәyә çalışın.



**Oğlaq** - Çalışdığınız sahәdә problemlәr yaradacaq. Dәyәr verdiyiniz insanlardan biri ilә fikir ayrılığı, mübahisә istisna deyil. Tәmkinli, soyuqqanlı olun. Emosiyaların kölәsinә çevrilmәyin.



**Dolça** - Kiçik, amma cansıxıcı işlәr az olmayacaq. Mәişәt qayğılarının sayı çoxdur. Qüvvә vә potensialınızı yanlış dәyәnlәndirmәyin ki, sonradan sәhvlәrin nәticәlәrini aradan qaldırmaq zәrurәti ilә üzlәşmәyәsiniz.



**Balıqlar** - Günün ilk yarısından etibarәn proseslәr gәrgin vә qarışıq olacaq. Çәtinliklәri әnәnәvi, adәt etdiyiniz vasitәlәrlә hәll etmәk asan deyil. Bәzi mühüm mәsәlәlәri tәxirә salmadan, dәrhal çözmәk gәrәkdir.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Yaponiyalı alimlәr yadplanetlilәrin indiyә kimi Yerә gәlmәdiklәrini deyir

**Yaponiya Dövlәt Astronomiya Rәsәdxanasının professoru Xitosi Yamaoka bu ölkәnin alimlәrinin fәal şәkildә Yerdәn kәnarda hәyat axtarışı ilә mәşğul olduqlarını bildirib.**

"Teleqraf.com" xәbәr verir ki, o, hәlilik yadplanetlilәrin Yerә gәlişi ilә bağlı real dәlillәr aşkar olunmadığını bildirib. Xitosi Yamaokanın sözlәrinә görә, demәk olar ki, onun bütün hәmkarları Yerdәn kәnarda hәyat olduğuna inanırlar: "Lakin biz hesab etmirik ki, yadplanetlilәr nә vaxtsa bizim planetә sәyahәt ediblәr".

Yaponiyalı alim onu da qeyd edib ki, Yerdәn kәnarda mümkün mәskunlaşma Proksima "b" planetindә ola bilәr: "Bu planet yerdәn 4,3 işıq ili mәsafәdә yerlәşir". Bundan başqa , Xitosi Yamaoka bildirib ki, Yaponiyada Astrobioloji Mәrkәz adlnan institut var vә oranın mütәxәsislәri dә Günәş sistemindәn kәnarda hәyat axtarışı ilә mәşğuldurlar.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.